Demokratiya, güclü iqtisadiyyat - Dağlıq Qarabağın açarıdır!

DEMOKRATİK, MÜSTƏQİL QƏZET

BAKI XƏBƏR

www.baki-xeber.com

26
DEKABR
2019-cu il

№ 231 (4129)

Qiymәti
40 qәpik

Hәftәdә
5 dәfә çıxır

Qәzet
2003-cü ildәn
nәşr olunur

# İCRA BAŞÇILARI İLƏ DEPUTATLARIN CİNAYƏTKAR SÖVDƏLƏŞMƏSİ - MƏKTUBLAR GİZLƏDİLİR, MƏMURLAR ŞANTAJ EDİLİR, PREZİDENTDƏN XƏBƏRSİZ OYUNLAR GEDİR...

■ səh. 5 ■

Prezident gələn il üçün şəhid ailələrinə söz verdi - 2 dəfədən çox... ■ səh. 4 ■

Prezident yanında KİVDF-nin Müşahidə Şurası gələn ilin birinci yarısında qəzetlər arasında növbəti müsabiqəni elan etdi ■ səh. 2 ■

Ermənistan indi də Naxçıvanın Əylis və Cuğa kəndlərində saxta erməni genosidləri üzərində oyuna başlayır ■ səh. 6 ■

Bakı Dövlət Universitetində "Pulsuz təhsil" aksiyası, 100 illikdə Prezidentin mesajları və gənclərimizə xaricdən gizli təsir oyunları... ■ səh. 4 ■

Paşinyana daxili ictimai qınağın əsas tezisi - Azərbaycan öz maraqlarını daha ardıcıl şəkildə irəli apara bilib... ■ səh. 9 ■

Putinin nümayəndəsindən Ermənistana - özünüzə tərəfdaşları elə axtarın ki, Rusiya ilə münasibətlər... ■ səh. 7 ■

Azərbaycan bələdiyyə seçkilərində seçici aktivliyinin 32 faiz həddi - əvvəlki 4 seçkidə iştirakçılığın dinamikası... ■ səh. 10 ■

Manatın dollar qarşısında güclənməsi qaçılmaz hala gəlir... ■ səh. 12 ■




■ səh. 8 ■

## Azərbaycana silah embarqosunu qaldıran Avropa dövlətlərinin sayı 10-a çatdı...

*Azərbaycan uğrunda Rusiya və Qərbin yeni rəqabəti başlanır*





Avropa Birliyi ilə Azərbaycanın sazişinə erməni «traktovkası» və əsl mahiyyət - Prezident əslində erməni təbliğat oyununu vurdu ■ səh. 3 ■

Azərbaycan «Şərq Tərəfdaşlığı» üzvlüyündə yeni strategiyaya başladı - «Çıxmırıq, fəal da olmuruq»... ■ səh. 6 ■

Njde məsələsində Putindən Paşinyana dalbadal iki zərbə - tarixi saxtalaşdırmayın, Hitlerlə görüşmək məsuliyyət yaradır... ■ səh. 7 ■

■ səh. 3 ■ 2019-cu ildə Qarabağ məsələsində dönüşün olmaması tam və birmənalı Ermənistanın məsuliyyətidir



■ səh. 10 ■ Təmsil etdiyi köhnə dairədən yeni dairələrə keçid edən deputatlar - köhnə dairələrdən "qaçışmanın" səbəbləri...



■ səh. 13 ■ Azərbaycanda min manat əməkhaqqı alan müəllimlər...



■ səh. 14 ■ 10 illik teatr proqramının icra vəziyyətinə ciddi iradlar var



■ səh. 15 ■ Can alan saxta spirtli içkilər bazarlarımızı tutub



## Prezident İlham Əliyev 2019-cu ilin idman yekunlarına həsr olunan mərasimdə iştirak edib

**Dekabrın 25-də Milli Olimpiya Komitəsində 2019-cu ilin idman yekunlarına həsr olunan mərasim keçirilib. Azərbaycan Prezidenti, Milli Olimpiya Komitəsinin Prezidenti İlham Əliyev mərasimdə iştirak edib.**

Dövlət başçısı tədbirdə çıxış edib.

Sonra Azərbaycanda bədən tərbiyəsinin və idmanın inkişafında xidmətləri olan və 2019-cu ildə yüksək nailiyyətlər qazanan idmançılara və idman mütəxəssislərinə mükafatlar təqdim olunub.

Dövlət başçısı ölkəmizdə idmanın inkişafında xidmətlərinə görə Alavərdi Culfayevə, Yavuz Eminbəyliyə və Ramiz Hacıyevə Azərbaycan Prezidentinin fərdi təqaüdünün verilməsi haqqında sənədləri təqdim etdi.

Azərbaycanda idmanın inkişafında xidmətlərinə görə Paşa Əliyev, Tərlan Həsənov, Şahlar Mustafayev, Azər Həsənov, İqdam Ələkbərov, Tofiq Heydərov və Böyükağa Ağayev Əməkdar bədən tərbiyəsi və idman xadimi, idman səhiyyəsinin inkişafındakı xidmətlərinə görə Natiq Əliyev və Emiliya Hüseynovaya Əməkdar həkim, Rəşad Cavadova isə Əməkdar jurnalist fəxri adlarının vəsiqələri təqdim olunub.

Tədbirdə Pərviz Tağıyev, Ramiz Quliyev, Nazim Səmədov, Orxan Qəribov, Yalçın Qaralı, Şahin Mahmudov, Nadir Əzizov və Ramil Əhmədov Milli Olimpiya Komitəsi Prezidentinin fəxri fərmanları ilə təltif edilib.

Prezident İlham Əliyev 2019-cu ildə yüksək nailiyyətlər göstərmiş bir qrup idmançıya və idman mütəxəssisinə - Salman Əlizadə, Bəhram Mürvətov, Qərib Əliyev, Rəşad Məmmədov, Ramiz Ramizzadə, Bəhruz Salehli, Səbinə Məmmədova, Elxan Süleymanov, Səid Quliyev, Əbülfəz Məmmədov, Rəşad Əbdürrəhmanov, Vladislav Qədirov, Anar Allahverdiyev, Xanım Balacayeva, Kərim Sərdarov, Emil Həsənov, Kamil Qafarov, Ceyhun Hüseynov, Asiman Qurbanlı, Cabbar Mustafayev, Faiq Quliyev, Şahbandlu Rəcəbzadə və Səməd Qurbanova yeni mənzillərin orderlərini təqdim edib.

Daha sonra Milli Olimpiya Komitəsinin İcraiyyə Komitəsinin üzvü, Miniatür Kitab Muzeyinin təsisçisi və rəhbəri, Əməkdar incəsənət xadimi Zərifə Salahova Prezident İlham Əliyevə xatirə hədiyyələri təqdim edib.

## Şəki və Siyəzən rayonlarına yeni gənc prokurorlar təyin edildi

**Xalqımızın ümummilli lideri Heydər Əliyev tərəfindən təməli qoyulmaqla Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə uğurla reallaşdırılan dövlət gənclər siyasətinə uyğun olaraq 2002-ci ildən etibarən gənc hüquqşünasların prokurorluq orqanlarına işə qəbulu test üsulu ilə həyata keçirilir.**



Şəffaf və ədalətli prosedurlar əsasında müsabiqə yolu ilə aparılan işə qəbulun bu mütərəqqi yolu prokurorluğun kadr tərkibinin hərtərəfli biliyə və yüksək mənəvi keyfiyyətlərə malik, dövlətçilik ideyalarına sədaqətləri ilə seçilən gənc mütəxəssislər hesabına komplektləşdirilməsi üçün geniş imkanlar yaradılıb.

Hazırkı vaxtadək qulluğa qəbul edilmiş gənclərin prokurorluğun kadr korpusunun 70 %-ni təşkil etməsi göstərilənlərin məntiqi nəticəsidir.

Təqdirəlayiq haldır ki, müsabiqə yolu ilə qulluğa qəbul olmuş yüksək nəzəri bilik və peşə hazırlığı ilə fərqlənən gənc prokurorluq işçilərinə yüksək etimad göstərilərək onlar müxtəlif vəzifələrə, o cümlədən rayon prokuroru, Baş Prokurorluğun idarə rəisinin müavini, şöbə rəisi və sair kimi məsul vəzifələrə irəli çəkilirlər.

Bu barədə Baki-xeber.com-a açıqlama verən Baş Prokurorluğun mətbuat xidmətinin rəhbəri Eldar Sultanov bildirib ki, Azərbaycan Respublikasının Baş prokuroru cənab Zakir Qaralovun imzaladığı əmrlərlə Baş Prokurorluğun Daxili işlər orqanlarının istintaq, təhqiqat və əməliyyat-axtarış fəaliyyətində qanunların icrasına nəzarət idarəsinin rəis müavini Mehman Xankişiyevin Şəki, Baş Prokurorluğun Kadrlar idarəsinin prokuroru Ramil Əliyevin isə Siyəzən rayon prokuroru vəzifələrinə təyin edilmələri ölkəmizdə dövlət gənclər siyasətinin reallaşdırılmasının müsbət nəticəsi və prokurorluq orqanlarında aparılan kadr islahatlarının uğurudur.

# Prezident ərazilərimizin azad ediləcəyi günün uzaqda olmadığını bildirdi...

**Prezident İlham Əliyev dünya azərbaycanlılarını 31 Dekabr - Həmrəylik Günü münasibətilə təbrik edib.**



Dövlətimizin bir ildə uğurlarını geniş təhlil edən dövlət başçısı qeyd edib ki, Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin ədalətli həlli və ərazi bütövlüyümüzün bərpası taleyüklü bir vəzifə olaraq qarşıda durur. Dövlətimizin iqtisadi-hərbi qüdrəti, beynəlxalq aləmdə getdikcə güclənən mövqelərimiz və fəal siyasi-diplomatik səylərimiz bu ağrılı problemin Azərbaycanın milli maraqlarına uyğun həlli üçün səfərbər edilmişdir. Son illər ordumuzun cəbhədə qazandığı uğurlar da göstərir ki, əzəli və əbədi Azərbaycan torpağı Qarabağın düşmən tapdağından azad ediləcəyi və tarixi ədalətin zəfər çalacağı gün uzaqda deyildir.

Azərbaycan Respublikası hazırda özünün parlaq və davamlı inkişaf dövrünü yaşayır. Dünyanın müxtəlif guşələrində məskunlaşan, lakin qəlbi daim Azərbaycan eşqi ilə döyünən soydaşlarımız da bu tarixi prosesdən kənarda deyil və onların xalqımızın tərəqqisində, Azərbaycan həqiqətlərinin dünya ictimaiyyətinə çatdırılması işində təqdirəlayiq xidmətləri yüksək qiymətləndirilməlidir.

Ümidvaram ki, harada yaşamalarından asılı olmayaraq, soydaşlarımız məskunlaşdıqları ölkələrin həyatına inteqrasiya ilə yanaşı, öz milli kimliyini, mənəvi-əxlaqi dəyərlərini, tarixi Vətənlə bağlılığı qoruyacaq.

# Prezident yanında KİVDF-nin Müşahidə Şurası gələn ilin birinci yarısında qəzetlər arasında növbəti müsabiqəni elan etdi

**Dekabrın 25-də Azərbaycan Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun Müşahidə Şurasının növbəti iclası keçirilib. Fondun Müşahidə Şurasının sədri Həsən Həsənov iclası açıq elan edərək gündəlikdəki məsələlər barədə məlumat verib:**



1. Fondun 2020-ci ilin I yarısı üzrə KİV layihələrinin maliyyələşdirilməsi ilə bağlı müsabiqə elanının müzakirəsi və təsdiqi;
2. Fondun 31 dekabr Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il münasibətilə keçirdiyi fərdi jurnalist yazıları müsabiqəsinin nəticələrinin müzakirəsi və təsdiqi.

Müzakirəyə çıxarılan birinci məsələ barədə məlumat verən icraçı direktor Vüqar Səfərli bildirib ki, KİV-lərə maliyyə yardımı müsabiqəsinin 2019-cu il dekabrın 26-dan 2020-ci il yanvarın 10-dək "Azərbaycan Respublikasında kütləvi informasiya vasitələrinin inkişafına dövlət dəstəyi Konsepsiyası"nda əksini tapmış 19 istiqamət üzrə keçirilməsi nəzərdə tutulur. V.Səfərli KİV layihələrinin maliyyələşdirilməsi ilə bağlı müsabiqənin elanında hər hansı dəyişikliyin nəzərdə tutulmadığını bildirib. İcraçı direktor həmçinin vurğulayıb ki, 2019-cu ilin II yarısında olduğu kimi, 2020-ci ilin I yarısında da ictimai-siyasi qəzetlərin 3 kateqoriyaya (gündəlik, günaşırı və həftəlik) bölünməsi və maliyyələşdirilməsi təklif edilir.

Sonra Müşahidə Şurasının üzvləri müsabiqə elanı ilə bağlı fikirlərini bölüşüblər. Müşahidə Şurasının sədri Həsən Həsənov, sədr müavini İlqar Hüseynov, üzvlərdən Cəmaləddin Quliyev, Bəhruz Quliyev, Əvəz Rüstəmov, Ramiz Əsgər, Rasim Həsənov və Ayaz Mirzəyev KİV-lər üçün keçirilən müsabiqənin onların maddi-texniki bazasının möhkəmləndirilməsi baxımından əhəmiyyətini vurğulayıblar. Müsabiqə elanı səsə qoyularaq təsdiq edilib.

Gündəlikdəki ikinci məsələ barədə məlumat verən Vüqar Səfərli bildirib ki, 31 dekabr Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il münasibətilə 2019-cu il noyabrın 8-dən dekabrın 13-dək keçirilmiş fərdi jurnalist yazıları müsabiqəsinə 56 KİV-dən 150 yazı daxil olub. Yazılar 12 ekspert tərəfindən qiymətləndirilib. Ekspertlərin qiymətləndirməsinə əsasən, 19 nəfər I, 38 nəfər II, 56 nəfər III yerə layiq görülüb.

Nəticələrlə tanış olan Müşahidə Şurasının üzvləri fərdi jurnalist yazıları müsabiqələrinin peşəkar jurnalist yaradıcılığının stimullaşdırılması və sosial vəziyyətinin yaxşılaşdırılması baxımından əhəmiyyətini vurğulayıblar. Sonda müsabiqənin nəticələri səsə qoyularaq təsdiq edilib.

İclasda Fondun yaxın dövr üçün fəaliyyət istiqamətləri barədə də müzakirələr aparılıb.

**Erməni mətbuatı Azərbaycanla bağlı məlumatları yanlış formada təqdim etmək "ənənəsinə" sadiq qalaraq yenə də təhrifedici iddialarla çıxış edir. Erməni mediası iddia edir ki, guya Prezident İlham Əliyev yerli medianın suallarını cavablandırarkən Avropa İttifaqı ilə Azərbaycan arasındakı assosiativ sazişin imzalanmamasının əsl səbəblərini gizlədib.**

# Avropa Birliyi ilə Azərbaycanın sazişinə erməni "traktovkası" və əsl mahiyyət - Prezident əslində erməni təbliğat oyununu vurdu



Onların iddiasına görə, Aİ Azərbaycanın ərazi bütövlüyünü tanımağa hazır olmadığına görə rəsmi Bakı sazişi imzalamır.

Onu da iddia edirlər ki, yüksək səviyyəli Azərbaycan rəsmiləri Aİ-nin Azərbaycanın ərazi bütövlüyünü tanımağa hazır olmadığını dəfələrlə işarə ediblər. Daha sonra bunlar qeyd edilir: "Aİ Qarabağ münaqişəsinin həlli ilə bağlı üç prinsipi - ərazi bütövlüyü, öz müqəddəratını təyinetmə hüququ və münaqişənin hərbi yolla həllini rədd edən ATƏT-in Minsk Qrupunun səylərini dəstəkləyir. Bu o deməkdir ki, Azərbaycanın ərazi bütövlüyü mübahisəsiz deyil".

Ancaq erməni mətbuatının bu iddialarının heç bir əsası yoxdur. Çünki Prezident İlham Əliyev yerli televiziya kanallarına müsahibəsində bu məsələyə aydınlıq gətirdi. Belə ki, ölkə başçısı ilk dəfə sazişin imzalanmasının gecikməsinin iki səbəbini göstərdi. Birincisi, Prezident qeyd etdi ki, sazişin mətninin təxminən 90 faizi razılaşdırılıb. Buna baxmayaraq, Brüsselin şərtlərindən biri Azərbaycanın Ümumdünya Ticarət Təşkilatına üzvlüyünü sürətləndirməkdir. İlham Əliyevin cavabından aydın oldu ki, indiki şərtlər altında Azərbaycanın Ümumdünya Ticarət Təşkilatına üzvlüyü mümkün deyil. Çünki ucuz mallar Azərbaycan bazarını doldura bilər. Azərbaycan rəqabətqabiliyyətli məhsullar istehsal etməlidir ki, xarici mallarla rəqabətə tab gətirə bilsin. Səbəblərdən biri bunla bağlıdır.

Prezident sazişin imzalanmasının yubanmasının ikinci səbəbini də göstərdi. Avropa İttifaqı Azərbaycandan tələb edir ki, başqa ölkələrə qazı hansı qiymətə satırsa, daxili bazarda da eyni qiymətə satsın. Bu, Azərbaycanın maraqlarına uyğun deyil. Çünki yerli əhali və sənaye müəssisələri üçün qazın qiymətləri artarsa, həm narazılıq, həm də yerli məhsulların qiyməti artacaq. Bakı Brüsselin bu şərtini qəbul etmir.

Göründüyü kimi, ölkə başçısı tutarlı faktlarla assosiativ sazişin imzalanmamasının səbəblərini göstərməklə erməni mediasının arqumentlərini darmadağın etdi. Digər tərəfdən, sazişin imzalanmaması o demək deyil ki, proses dayanıb. Hazırda bu istiqamətdə iş gedir. O cümlədən, sözügedən iki maneənin də aradan qaldırılması ilə bağlı işlər görülür. Ancaq bunun üçün həm də müəyyən zaman lazımdır ki, Azərbaycan Aİ ilə saziş imzalaya bilsin.

Ərazi bütövlüyü məsələsində Azərbaycanla Aİ arasında erməni mediasının iddia etdiyi kimi problem yoxdur. Əvvəl Azərbaycanın Aİ-dən belə bir tələbi olub. Yəni sazişdə Azərbaycanın ərazi bütövlüyü ilə bağlı qeyd-şərtsiz mövqeyin ortaya qoyulması tələb olunub. Bu məsələ həll olunub. Çünki Avropa İttifaqı necə ki, Gürcüstan, Ukrayna və Moldova ilə imzaladığı assosiativ sazişlərdə bu ölkələrin ərazi bütövlüyünə dəstək ifadə edib, eyni maddənin Azərbaycanla sazişdə də vurğulanacağı razılaşdırılıb. Məsələ ondadır ki, 11 iyul 2018-ci ildə Azərbaycanla Aİ arasında paraflanan "Tərəfdaşlıq prioritetləri" sənədində Azərbaycanın ərazi bütövlüyü və sərhədlərinin toxunulmazlığına dair müddəa əksini tapıb. Belə ki, sənədin birinci bəndində qeyd edildiyi kimi, əməkdaşlığın daha da gücləndirilməsi məqsədilə qarşılıqlı maraq və birgə dəyərlərə əsaslanaraq, Azərbaycan və Avropa İttifaqı tərəfindən birgə tərəfdaşlıq prioritetləri razılaşdırılıb. Eyni zamanda, birinci bənddə hər iki tərəfin ölkələrin ərazi bütövlüyü, müstəqilliyi və suverenliyi ilə yanaşı, dövlətlərin beynəlxalq sərhədlərinin toxunulmazlığının dəstəklənməsinə sadiqliyi ifadə olunur.

O üzdən, erməni mediasının Aİ ilə Azərbaycan arasında assosiativ sazişin imzalanmamasının ərazi bütövlüyü ilə bağlı olması barədə iddiaları tamamilə absurddur. Ermənilərin növbəti dəfə yalan üzərində təbliğat qurmaq cəhdi uğursuzluğa uğradı.

***Vidadi ORDAHALLI***

**Azərbaycan Prezidentinin yerli televiziyalara geniş müsahibəsi onun xalqla ən ümdə məsələlər barədə dialoqa və KİV-lə əməkdaşlığa nə qədər açıq olduğunu bir daha ortaya qoydu. Bunu "Trend"-ə açıqlamasında "Bakı-Xəbər" qəzetinin baş redaktoru, siyasi ekspert Aydın Quliyev deyib.**

# 2019-cu ildə Qarabağ məsələsində dönüşün olmaması tam və birmənalı Ermənistanın məsuliyyətidir

## *Aydın Quliyev: "Prezident xalq qarşısında növbəti dəfə uğurlu hesabat və gələcək fəaliyyət proqramı ilə çıxış etdi"*




Onun sözlərinə görə, ilkin ictimai və ekspert reaksiyaları göstərir ki, Prezidentin cavab və təhlilləri cəmiyyətimizi tam qane edir, cəmiyyət onu maraqlandıran və bəzən hətta narahat edən bütün suallara Prezidentin çıxışında dolğun cavablar tapır və gələcəyə daha nikbin ovqat üzərində köklənir: "Prezidentin çıxışına cəmiyyətin belə münasibətinin əsas və həlledici şərti odur ki, ölkə başçısı daxili və xarici siyasətin bütün vacib məsələlərini əhatə edir, təhlil və izahlarında səmimidir, mövcud çətinlik və problemlərin köklərini dərindən gördüyünü nümayiş etdirir, əsaslı arqumentləri və dəqiq məntiqi ilə insanları böyük inandırma gücünə malikdir.

Prezident hazırda cəmiyyətimizin ən çox müzakirə və diqqət etdiyi bütün məsələlər barədə birmənalı fikir yaranmasına əsas verən ideya platforması ortaya qoydu. Necə ki, Prezidentin bölgələrdə sadə insanlarla protokoldankənar görüş və söhbətləri özünü doğruldur, necə ki, yeni təyinat almış kadrlarla efirdə açıq müzakirələr aparması gözlənilən effekti verir, eynilə də yerli telekanallara geniş müsahibəsi şəraitə tam uyğun olan yeni iş üslubu kimi cəmiyyətimizə böyük yönəldici, inandırıcı və toparlayıcı təsir göstərir.

Konkret məqamlara varsaq, cəmiyyətimizin hələ uzun müddət müzakirə mövzuları kimi aktual hesab edəcəyi bir neçə məsələni yada salmaq kifayətdir. Prezident 2019-cu ildə Qarabağ probleminin həllində dönüş olmamasının məhz Ermənistanın siyasətinin nəticəsi olduğunu elə inandırıcı arqumentlərlə əsaslandırdı ki, bu, xalqımızın inamını daha da artırmaqla bərabər, fəaliyyətsiz beynəlxalq dairələrə də çox təsirli mesaj oldu. Əslində, Prezident çox doğru olan belə bir ideyanı daha da bərkitdi ki, Ermənistana yetərli təsir göstərməyən beynəlxalq birlik elə təcavüzkar Ermənistanın özü qədər məsuliyyət daşıyır".

Ekspert qeyd edib ki, Avropa Birliyi ilə sazişin niyə hələ imzalanmamasının səbəblərinin cəmiyyət üçün müstəsna maraqlı olduğuna şübhə ola bilməz: "Prezident Avropa ilə saziş xatirinə Azərbaycan xalqının maraqlarının hətta ən kiçik hissəsini belə heç vaxt qurban verməyəcəyini bütün dünyaya cəsarətlə göstərdi. Öz neft və qazımızı xalqımıza dünya qiymətləri ilə sata və daxili istehsalımızı özünün taleyi qaranlıq olan Dünya Ticarət Təşkilatının mənafelərinə qurban verə bilmərik kimi prinsipial izahat yalnız İlham Əliyev kimi əsl vətənpərvər prezidentlərin nümayiş etdirə bildikləri mövqe ola bilərdi.

Kadr və struktur islahatlarının prinsipcə bir-birini tamamlaması və hər şeyin öz vaxtında edildiyi barədə Prezidentin fikirləri bir çox sualların ən doğru cavabını özündə əks etdirən yetkin ideoloji platformadır. Prezidentin müsahibəsinin nadir xüsusiyyətlərindən biri əsl millət vəkilinə aid edilən xüsusiyyətlərə açıq diqqət yönəltməsidir. Mojaritar seçki sisteminin Azərbaycan mühiti üçün üstünlükləri ideal inandırıcı məntiqlə izah edildi. Bəlkə də insanlara adi görünə bilər ki, millət vəkili səlahiyyət müddəti boyunca seçildiyi dairənin xeyirşərinə yaramır, illərlə ortada görsənmir. Prezident konkret formada bu məsələni elə izah etdi ki, həm indiyə qədər bu üslubda başını girələmiş deputatların ciddi məsuliyyət daşımadıqlarını ifşa etdi, həm də hazırda seçilmək iddiasında olan yenilərə çox mühüm bir deputatlıq vəzifəsini və borcunu xatırlatdı.

Rüşvətxor və talançı məmurlara sadə dildə ifadə edilmiş xəbərdarlıq seçilmiş yolun heç də mövsümi xarakter daşımadığını, güzəştsiz şəkildə davam etdiriləcəyini, kasıbların büdcə payına göz dikənlərə münasibətin daha sərt olacağını deməyə əsas verir".

A.Quliyev əlavə edib ki, Prezident, kimliyindən asılı olmayaraq, hər bir məmura səmimi olmaq, yerli problemləri tam öyrənmək və problemləri ört-basdır etmək yolundan uzaq olmaq barədə çox qiymətli tövsiyələr verdi:

"Azərbaycanın daxili işlərinə sabitliyi pozmaq və bəzi qüvvələri dəstəkləmək məqsədilə müdaxilə cəhdlərinin heç vaxt səmərə verməyəcəyi barədə bəyanatın məlum dairələrə müstəsna təsir göstərəcəyi şübhəsizdir. İnamla ifadə edildi ki, Azərbaycanda hakimiyyətlə xalqın arasına girmək indiki şərtlər daxilində heç bir subyektə nəsib olmayacaq.

Prezidentin Azərbaycanda əsl və güclü müxalifətin formalaşacağına inamını açıq ifadə etməsi mühüm strateji önəm daşıyır və bir daha möhkəm təminat yaradır ki, Azərbaycan demokratik və plüral inkişaf platformasından dönməyəcək. Prezident xalqın qarşısında növbəti dəfə uğurlu hesabat və gələcək fəaliyyət proqramı ilə çıxış etdi".

# Prezident gələn il üçün şəhid ailələrinə söz verdi - 2 dəfədən çox...

**"Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin "Azərbaycan Respublikasının ərazi bütövlüyünün, müstəqilliyinin və konstitusiya quruluşunun müdafiəsi ilə əlaqədar əlil olmuş şəxslərin və şəhid ailələrinin sosial-məişət şəraitinin yaxşılaşdırılmasına dair əlavə tədbirlər haqqında" 24 dekabr 2019-cu il tarixli Sərəncamı bu kateqoriyadan olan vətəndaşların mənzil-məişət şəraitlərinin yaxşılaşdırılmasının dövlət başçısının daim diqqət mərkəzində olduğunu bir daha təsdiq edir".**



## *Fatimə Hacıbəyli: "Respublikamızda dövlətin Qarabağ müharibəsi əlillərinə və şəhid ailələrinə qayğısı davamlı və çoxşaxəli səciyyə daşıyır"*

Bu barədə baki-xeber.com-a Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyindən məlumat verilib.

Qeyd edilib ki, sərəncamın imzalandığı gün, dekabrın 24-də Prezident İlham Əliyev Bakının Nizami rayonunda şəhid ailələri və Qarabağ müharibəsi əlilləri üçün inşa olunan yaşayış binasında mənzillərin, həmçinin, Qarabağ müharibəsi əlillərinə və onlara bərabər tutulan şəxslərə avtomobillərin təqdim olunması mərasimində iştirak edib. Dövlət başçısı mərasimdə çıxışı zamanı "Şəhid ailələrinə və Qarabağ müharibəsi əlillərinə 7500-dən çox mənzil və fərdi ev, 7 minə yaxın minik avtomaşını verilib. Bu, deyə bilərəm ki, çox nadir hallarda dünya miqyasında baş verir. Hesab edirəm ki, Azərbaycan bu sahədə ən düzgün siyasət aparır. Çünki bu siyasətin mərkəzində Azərbaycan vətəndaşı dayanır. Xüsusilə o vətəndaşlar ki, öz həyatını Vətən uğrunda qurban vermişdir və sağlamlığını itirmişdir. Bundan sonra da bu siyasət davam etdiriləcək" - deyə vurğulayıb. 24 dekabr 2019-cu il tarixli Sərəncam da bu siyasətin uğurla davam etdirildiyini özündə təcəssüm etdirir.

Eyni zamanda, Prezident İlham Əliyev gələn il ən azı 1500 mənzil və fərdi evin verilməsinin nəzərdə tutulduğunu da bildirib. Göründüyü kimi, dövlət başçısının şəhid ailələrinə və müharibə əlillərinə xüsusi qayğısı həmin insanların mənzillə təminatı tədbirlərinin gələn il də yüksələn xətt üzrə davam edəcəyinə, növbəti ildə daha 1500 şəhid ailəsinin və müharibə əlilinin mənzillə və fərdi evlərlə təmin ediləcəyinə zəmin yaradır.

"Vəfa" Sosial-İctimai Birliyinin rəhbəri Fatimə Hacıbəyli qeyd etdi ki, Azərbaycan sosial dövlətdir: "Prezident İlham Əliyev dəfələrlə bəyan edib ki, ölkədə həyata keçirilən siyasətin mərkəzində məhz Azərbaycan vətəndaşı dayanır. Azərbaycanda hərbi qulluqçuların, şəhid ailələrinin, müharibə əlillərinin etibarlı sosial müdafiəsinin təmin edilməsinə xüsusi diqqət göstərilir. Son illər Prezident İlham Əliyevin məqsədyönlü siyasətinə uyğun olaraq, hərbi sahəyə ayrılan xərclərin

*"...hərbi sahəyə ayrılan xərclərin əhəmiyyətli dərəcədə artırılması..."*

əhəmiyyətli dərəcədə artırılması ölkənin müdafiə potensialının gücləndirilməsi ilə yanaşı, Silahlı Qüvvələrdə xidmət edən hərbi qulluqçuların etibarlı sosial müdafiəsinin təmin edilməsinə, mənzil-məişət problemlərinin həll olunmasına, onlara verilən imtiyaz və güzəştlərin miqyasının genişləndirilməsinə daha geniş şərait yaradıb. Bütövlükdə, respublikamızda dövlətin Qarabağ müharibəsi əlillərinə və şəhid ailələrinə qayğısı davamlı və çoxşaxəli səciyyə daşıyır.

Prezident İlham Əliyev Qarabağ müharibəsi əlillərinin və şəhid ailələrinin sosial müdafiəsinin gücləndirilməsinə, o cümlədən, onların mənzil-məişət şəraitinin yaxşılaşdırılmasına yönələn bir neçə fərman və sərəncamlar imzalayıb. Həmin sərəncamlara əsasən, Qarabağ müharibəsi əlillərinə və şəhid ailələrinə dövlət vəsaiti hesabına hər cür rahatlığa malik mənzillər verilir və veriləcək. Gələn il daha 1500 mənzilin şəhid ailələrinə və Qarabağ müharibəsində iştirak etmiş əlillərə verilməsi gözlənir. Bu, artıq ənənə halını alıb".

**_Günel CƏLİLOVA_**

# Bakı Dövlət Universitetində "Pulsuz təhsil" aksiyası, 100 illikdə Prezidentin mesajları və gənclərimizə xaricdən gizli təsir oyunları...

**Sosial şəbəkələrdə Bakı Dövlət Universitetində bir qrup tələbənin aksiya keçirməsi ilə bağlı məlumat yayılıb. Məlum olub ki, bir qrup tələbə təhsil müəssisəsinin 2 saylı korpusunda "Pulsuz təhsil" şüarlı plakat asıblar.**




## *Məhərrəm Zülfüqarlı: "Hesab edirəm ki, bu aksiya ilə başlıca olaraq təhlükəsizlik məsələsini test ediblər"*

Sosial mediada paylaşılan foto birmənalı qarşılanmayıb. Bəzi şəxslər universitetdə rüşvətin olmadığını, bəziləri isə müəllimlərə qiymət almaq üçün pul verildiyini bildiriblər. Məlumata görə, aksiyanı kitabxanaçılıq fakültəsinin tələbələri keçiriblər.

Maraqlıdır ki, bu məsələyə ən böyük diqqəti xaricdən yayımlanan KİV və internet televiziyaları ayırıb. Əslində, aksiyanın niyə məhz indiki məqamda keçirildiyi və buna xarici təbliğat ruporları tərəfindən ciddi informasiya dəstəyinin verilməsi də çox maraqlı görünür. Məlumdur ki, dekabrın 23-də ölkədə bələdiyyə seçkiləri keçirildi. Artıq növbədənkənar parlament seçkilərinin keçirilməsi ilə bağlı qərar qəbul edilib. Belə həssas dönəmdə BDU-da baş verənlərin arxasında Azərbaycanı tələbə üsyanı ilə təhdid etmək kimi maraqlar dura bilərmi? Məkanın niyə məhz BDU-nun seçilməsi də çox maraqlıdır. Yada salaq ki, məhz BDU-nun 100 illik yubileyində Prezident İlham Əliyev milli-mənəvi dəyərlərimizin qorunmasının vacibliyini, xüsusilə də gənclərimizi Qərbdən gələn təsirlər altına salma cəhdlərini vurğulamışdı. Sözügedən aksiyada bu əlamətlər sezilirmi?

Professor Məhərrəm Zülfüqarlı "Bakı-Xəbər"ə açıqlamasında bildirdi ki, BDU-dakı hadisəyə sıradan biri kimi yanaşmaq lazım deyil: "Həmin şüara mən baxdım. Bir sıra fikirlər səsləndirmək olar. Əvvəla bu aksiyanın keçirildiyi yer və zaman çox maraqlıdır. Ölkəmiz üçün olduqca həssas bir dönəmi əhatə edir. Məkan olaraq BDU-nun seçilməsi də təsadüfi deyil. Çünki ora ölkənin tanınmış və böyük tələbə kontingenti olan universiteti sayılır. Şüarın özündə bir mücərrədlik var. "Pulsuz təhsil" nə deməkdir? Bu ifadənin özü mübahisəlidir. Söhbət pul ödəmədən təhsil almaqdan gedirsə, buna ödənişli təhsil demək olar. Əgər vurğunu rüşvətin üzərinə edirlərsə, bu da inandırıcı deyil. Çünki ölkə universitetlərinin çoxunda imtahan prosesi şəffaf keçirilir. Deməli, həmin tələbələr nə istədiklərini heç özləri də dəqiq bilməyib. Hesab edirəm ki, bu aksiya ilə başlıca olaraq təhlükəsizlik məsələsini test ediblər. Yəni həmin təhsil müəssisəsində təhlükəsizliyin hansı səviyyədə olduğunu yoxlayıblar ki, gələcəkdə nəzərə ala bilsinlər. Təbii ki, burada xoş məqsəddən söhbət gedə bilməz. Yalnız təxribat versiyası inandırıcıdır. Çox güman ki, bunu edənlər xarici təsirlər altına düşən aktiv sosial şəbəkə istifadəçisi olan gənclərdir. Bu yolla hansısa dairələr hakimiyyətə mesaj da vermiş olurlar. Burada siyasi çalar aydın hiss olunur. Çünki aksiya həssas zamanda keçirilib. Kim zəmanət verə bilər ki, sabah həmin şüarın yerinə başqa məzmunlusu asılmayacaq.

Bilirsiniz ki, Azərbaycanda bir çox həssas kateqoriya ailələr ödənişli təhsildən azaddır. Buna məcburi köçkünləri, şəhid övladlarını misal göstərə bilərik. Bütün dünyada ödənişli təhsil var. Bundan tam imtina etmək həmin universitetin vəziyyətini də pisləşdirə bilər. Çünki ödənişli təhsildən əldə olunan gəlirlər elə universitetin özünə xərclənir. Hesab edirəm ki, sözügedən aksiyanın əsl mahiyyəti ilə bağlı lazımi səviyyədə araşdırmalar aparılmalıdır".

**_Məhəmmədəli QƏRİBLİ_**

# İcra başçıları ilə deputatların cinayətkar sövdələşməsi - məktublar gizlədilir, məmurlar şantaj edilir, Prezidentdən xəbərsiz oyunlar gedir...

**Prezident İlham Əliyev 23 dekabr tarixində yerli jurnalistlərə müsahibəsində bir sıra mühüm məqamlara toxunub. Dövlət başçısının diqqət yönəltdiyi məsələlərdən biri də növbədənkənar parlament seçkiləri ilə bağlı idi.**

Ölkə rəhbəri parlament üzvlərinin fəaliyyətinə qiymət vermək istəməsə də, yeni seçiləcək deputatlara öz tövsiyələrini verib: "Mən parlament üzvlərinin fəaliyyətinə qiymət vermək istəmirəm, çünki bu, hakimiyyətin başqa qoludur. Ancaq yeni seçiləcək deputatlara tövsiyəm odur ki, onlar öz dairələrində daha fəal olsunlar ki, vətəndaşlar onları tanısınlar, onlara müraciət etsinlər. Onlar yerli və mərkəzi orqanlar qarşısında məsələ qaldırsınlar. Əgər belə olarsa, bax, dediyim o ictimai nəzarətin bir forması da bu olacaq. Çünki bəzi hallarda, mən bilirəm, deputat seçilir, ondan sonra öz dairəsinə heç baş çəkmir, heç maraqlanmır. Sonra da növbəti seçkilər yaxınlaşanda başlayır ki, mənə dəstək verin".

Prezident çox doğru vurğulayıb ki, bəzi şəxslər yalnız formal mandat daşıyıblar. Yəni həmin mandatın faydası yalnız özlərinə dəyib. Bir çox rayondan seçilən millət vəkillərinin isə konkret olaraq icra başçıları ilə cinayətkar sövdələşmələrə getdikləri bildirilir. İddialara görə, həmin deputatlar rayonlardan gələn şikayətləri ört-basdır etmək üçün icra başçılarından aylıq paket alıblar. Həmin sövdələşmənin şərtlərinə görə, deputat rayondan ona ünvanlanan məktubları götürüb yollanırmış elə şikayətin gəldiyi icra başçısının otağına.Orada da "səndən sənə şikayətim var" prinsipi ilə məsələ həll olunurmuş. Hətta həmin kompomatlar əsasında icra başçısı ilə deputatın cinayətkar tandemi bəzi məmurları şantaj edib pul da alırmışlar. Yəni bütün cinayətkar əməllər edilirmiş. Yeganə çalışılırmış ki, məsələ ictimailəşib, ölkə rəhbərliyinin diqqətini cəlb etməsin. Məhz bu cür fəaliyyət üzündən parlamentin buraxılması zərurəti ortaya çıxdı.



Sözsüz ki, dövlət rəhbərliyi bu cür acınacaqlı vəziyyətlə barışa bilməzdi. Cənab Prezidentin narahatlığı, ilk növbədə, bu amillə bağlıdır. Açığı, demokratik cəmiyyət quruculuğunda deputatlar da yaxından iştirak etmirdilər. Halbuki, ictimai nəzarət mexanizminin qurulmasında onların iştirakı vacibdir. Təəssüf ki, deputatlarımızın böyük əksəriyyətinin simasında bunu müşahidə edə bilmədik. Əksinə, onların işi-gücü mövcud problemləri ört-basdır etmək, ən yaxşı halda isə "malalamaqdan" ibarət idi.

Budəfəki seçkilərdə gücünü sınamaq istəyən AMİP funksioneri Elşən Mustafayev "Bakı-Xəbər"ə bildirdi ki, ötən seçkilərdə namizəd olub, lakin seçilə bilməyib: "Bilirsiniz ki, parlamentin buraxılması məhz belə deputatlara görə oldu. Onlar da yaxşı olar ki, bu dəfə yoldan çəkilsinlər. Baxın görün vəziyyət nə yerdədir ki, Prezident medianın yazmasını, deputatların danışmasını istəyir. Deməli, deputatların danışması özlərinə və onların sövdələşməyə getdiyi icra başçılarına sərf etməyib. Şəxsən mən görməmişəm ki, hansısa deputat parlamentdə öz seçicilərinin problemini kürsüdən səsləndirsin. Bəziləri öz övladlarının vəzifəsinə, bir çoxu isə bizneslərinə "krışalıq" ediblər. Mandatdan bu məqsədlərlə istifadə etmək olmaz. Xalqın səsinin qədrini bilmək lazımdır. Bu, müqəddəs dəyərdir. Hesab edirəm ki, yeni parlamentdə tamamilə fərqli şəxslər təmsil edilməlidir. Yaxşısı budur ki, köhnə parlamentarilər prosesdən bir qədər aralı dursunlar. Hüququ buna imkan versə də, məsələnin bir mənəvi tərəfi də var axı. Xalq bu dəfə icra başçıları ilə cinayətkar əlaqəyə girən millət vəkillərini parlamentə buraxmamalıdır. O dönəm bitdi. İndiki parlamentdə həqiqi millət vəkilləri təmsil olunmalıdır".

***Məhəmmədəli QƏRİBLİ***

# "2019-cu il dövlətçiliyimizin bütün parametrlər üzrə möhkəmləndiyi il oldu"

**"2019 -cu il Azərbaycanın tarixində özünəməxsus əlamətlərlə qalacaq. Artıq illərdən bəri seçilmiş və sistemli şəkil almış daxili və xarici siyasət kursu bu il də davam etdirildi. Ölkə konkret hədəflərinə doğru irəlilədi".**



Bu fikirləri SİA-ya açıqlamasında "Bakı-Xəbər" qəzetinin baş redaktoru, siyasi ekspert Aydın Quliyev deyib. Bu il dövlətin beynəlxalq mövqeyinin bir sıra ölçülərə görə xeyli möhkəmləndiyini deyən baş redaktor deyib ki, 2019-cu ildə bir sıra beynəlxalq layihələrin uğurla davam etdirildiyini nəzərə alsaq, Azərbaycanın müttəfiqlər dairəsi genişləndi və yeni müttəfiqlər əldə edildi.

Ekspert bildirib ki, Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının Bakıda keçirilən Zirvə toplantısında Macarıstana və Koreyaya status tanınması Azərbaycanın müttəfiqlər çevrəsinin genişlənməsi kimi başa düşülə bilər:"Azərbaycan mötəbər beynəlxalq platformalara uğurla ev sahibliyi və təşkilatçılıq etmək kursunu bir daha davam etdirdi. Bu il Azərbaycan forma və məzmunca dünyanın qarşısında daha geniş açıldı".

A.Quliyev qeyd edib ki, cari ilin ölkəmiz üçün uğurlarından bəhs edərkən kadr və struktur islahatlarının yeni mərhələyə daxil olmasından qətiyyətlə danışmaq olar: "Yeni iqtisadi model yaratmaq və sosial paketlər icra etməkdə Azərbaycan beynəlxalq aləmin diqqət mərkəzində öz mövqeyini bir daha qorudu. Ölkə daxilində sabitliyin möhkəmləndirilməsinə təsir göstərən müxtəlif sistem addımları, islahatlar və sosial dəstək paketləri icra edildi. Azərbaycan daxili sabitliyin möhkəm xalq-Prezident birliyi üzərində dayandığını tam nümayiş etdirə bildi".

Ekspert qeyd edib ki, bu il ölkənin mövqeyi o dərəcədə möhkəmləndi ki, artıq Azərbaycan beynəlxalq münasibətlər sistemində öz marağını təşviq etmək və ədalətsiz təzyiqlərdən qorunmaqda daha inamlı və iddialı siyasət aparır: "Prezidentin yerli media nümayəndələrinə müsahibəsində çoxsaylı nüanslarla bunu əsaslandırmaq olar. Ölkə başçısı bildirdi ki, biz "Şərq Tərəfdaşlıq" proqramından çıxmayacağıq, lakin onun daxilində fəallıq da göstərməyəcəyik. Dövlət başçısı tərəfindən "Avropa Birliyi ilə o şərtlər daxilində saziş imzalaya, daxili istehsalımızı təhlükəyə ata və qazı öz vətəndaşlarımıza heç vaxt dünya qiymətləri ilə sata bilmərik" və digər bəyanatların səsləndirilməsi əslində dünya siyasətində mövqeyimizin nə qədər möhkəm və ötkəm səviyyəyə çatdığını sübut edir".

Baş redaktor vurğulayıb ki, dünyanın enerji təhlükəsizliyi konsepsiyasına Azərbaycanın töhfələri bu il də davam etdi, TANAP-ın ikinci qolu və TAP istifadəyə verildi. Azərbaycan BMT-dən sonra dünyanın ən böyük dövlətlər platformasına sədr seçildi. Dünyanın məşhur sosial iqtisadi və hərbi reytinq siyahılarında Azərbaycan öz avtoritetini inamla qorudu.

Ölkə başçısının da vurğuladığı kimi, Dağlıq Qarabağ məsələsində ciddi irəliləyiş olmasa da, Azərbaycan dondurulmuş status-kvoya görə bütün məsuliyyətin Ermənistanın üstünə düşdüyünü bütün dünyaya sübut edə bildi. Prezident televiziyalara dəqiq dedi ki, Ermənistanın pozucu siyasəti və beynəlxalq dairələrin ona lazımi təzyiq göstərməməsi üzündən irəliləyiş əldə edilmədi. Ümumilikdə isə 2019-cu il dövlətçiliyimizin bütün parametrlər üzrə möhkəmləndiyi il oldu".

# Azərbaycan "Şərq Tərəfdaşlığı" üzvlüyündə yeni strategiyaya başladı - "Çıxmırıq, fəal da olmuruq"...

**"Azərbaycan "Şərq Tərəfdaşlığı" proqramından çıxmağı planlaşdırmır, ancaq proqramda da fəal iştirak etmək fikrində deyil". Bunu Prezident İlham Əliyev yerli jurnalistlərə ilin yekunları ilə bağlı geniş müsahibəsində "Şərq Tərəfdaşlığı" proqramı çərçivəsində əməkdaşlığın perspektivləri barədə suala cavabında deyib.**




***Fikrət Sadıqov:* "Azərbaycanın "Şərq Tərəfdaşlığı" proqramı ilə bağlı ortaya qoyduğu strategiya praqmatik siyasətə əsaslanır"**

Ölkə başçısının fikrincə, son 10 il ərzində Avropa İttifaqı daxilində bir çox proses cərəyan edib. Avropa İttifaqının gələcək fəaliyyəti, genişlənmə proqramı ilə bağlı fərqli fikirlər üstünlük təşkil edir: "Yəni 10 il bundan əvvəlki vəziyyət indiki vəziyyətlə ziddiyyət təşkil edir. Bu, birincisi. İkincisi, "Şərq Tərəfdaşlığı"na üzv olan ölkələri bir amil birləşdirir. O da ondan ibarətdir ki, bu ölkələr postsovet respublikalarıdır. Mən başqa birləşdirici amil görmürəm. Çünki ölkələrin həm xarici siyasəti fərqlidir, daxili vəziyyətdə böyük fərqlər var, təbii ki, iqtisadi inkişaf fərqlidir. Ona görə bu ölkələri bir proqramda birləşdirmək hesab edirəm ki, o vaxt üçün bəlkə də məqbul variant idi. Ancaq bu gün bu, belə deyil və bu ölkələrin bir neçəsi - daha doğrusu, 3 ölkə Avropa İttifaqı ilə assosiasiya sazişi imzalayıb. Bir ölkə genişlənmiş əməkdaşlıq müqaviləsi bağlayıb. Azərbaycan isə assosiasiya sazişini bağlamayıb və hazırda ikitərəfli saziş üzərində iş aparılır. Mən artıq bu barədə öz fikirlərimi bildirdim. Ona görə bu proqramın gələcəyi haqqında bir şey demək çətindir".

Prezident İlham Əliyev qeyd edib ki, bu proqram bizə təqdim olunanda biz bəri başdan öz fikrimizi bildirmişik ki, ikitərəfli formata üstünlük veririk: "Azərbaycan Avropa İttifaqından hər hansı bir imtiyaz gözləmir və proqramda iştirak edən bəzi ölkələrdən fərqli olaraq, biz özümüzü təmin edən ölkəyik, biz artıq Beynəlxalq İnkişaf Assosiasiyasının hesabatında sırf donor ölkəyə çevrilmişik". Ölkə başçısının bu yöndə sərgilədiyi siyasət tam Azərbaycanın maraqlarına uyğundur. Çünki sözügedən proqramla bağlı səslənən arqumentlər reallığı əks etdirir.

Maraqlıdır, bəs ekspertlər Prezidentin "Şərq Tərəfdaşlığı" proqramına yanaşmasını necə dəyərləndirirlər?

Məsələyə münasibət bildirən keçmiş diplomat, politoloq Fikrət Sadıqovun sözlərinə görə, bu məsələdə Azərbaycanın öz milli maraqlarından çıxış etməsi tamamilə anlaşılandır: "Şərq Tərəfdaşlığı" proqramı vaxtilə imzalanan bir layihə idi. Sözügedən layihə çərçivəsində müəyyən nəticələr əldə olunmalı idi, amma zaman göstərdi ki, heç bir nəticə əldə olunmur.

**"Prezidentin bu məsələdə sərgilədiyi mövqeyi tamamilə əsaslı hesab edirəm"**

Xüsusən də Azərbaycan üçün bu proqram o qədər də əhəmiyyətli deyil. Çünki Azərbaycan artıq özü donor dövlətə çevrilib. Maliyyə baxımından kimdənsə asılı deyil. Əksinə, bir sıra dövlətlər bizdən asılıdır. Çünki Azərbaycan bir sıra enerji-nəqliyyat layihələrinin təşəbbüskarı və bunları həyata keçirən bir dövlətə çevrilib. Postsovet ölkələrinin yeritdiyi siyasət fərqlidir. Həmin ölkələrdə daxili vəziyyət dəyişib, xarici siyasət prioritetləri də müxtəlif istiqamətlərdə inkişaf edir. Belə olan halda, Azərbaycanın "Şərq Tərəfdaşlığı" proqramı ilə bağlı ortaya qoyduğu strategiya praqmatik siyasətə əsaslanır. Ötən illər ərzində bu proqram heç bir nəticə verməyibsə, bundan sonra da Azərbaycanın maraqlarına uyğun hansısa müsbət nəticə gözləməyə dəyməz. Belə olan halda, proqramda aktiv iştirak etməyin bir anlamı yoxdur. O baxımdan, Prezident İlham Əliyevin bu məsələdə sərgilədiyi mövqeyi tamamilə əsaslı hesab edirəm".

***Vidadi ORDAHALLI***

# Ermənistan indi də Naxçıvanın Əylis və Cuğa kəndlərində saxta erməni genosidləri üzərində oyuna başlayır

**Saxta genosid oyunu ermənilərin son illər daha çox istifadə etdiyi metodlardan biridir. 1915-ci ildə guya türklərin ermənilərə qarşı genosid törətdiyini iddia edən ermənilər indi də tamam başqa bir iddia ilə, son günlərə qədər səsləndirmədikləri bir yalanla gündəmə gəliblər. İndi də ermənilər başqa bir yalanla, həqiqətdən kənar məsələ ilə dünya ictimaiyyətini çaşdırmağa çalışırlar.**




***Qasım Hacıyev:* "Tarixdə yalnız türklərə qarşı deyil, digər xalqlara qarşı da genosidlər törədən ermənilərin bu gün Əylisdə və Cuğada "genosidə məruz qalmalarının 100 illiyi"ni qeyd etməsi gülüncdür"**

Erməni mətbuatının yazdığına görə, guya ki, 1919-cu ildə Naxçıvan MR-in Ordubad rayonunun Əylis, Culfa rayonunun isə Cuğa kəndində "yerli ermənilərə qarşı azərbaycanlılar kütləvi qırğın törədib, onları genosidə məruz qoyub" (?). Ermənilərin bununla hansı məqsəd güddükləri məlumdur.

Ermənistan Xarici İşlər Nazirliyində "1919-cu ildə Əylisdə və Cuğada ermənilərə qarşı törədilən genosidin 100 illiyi" ilə bağlı keçirilən tədbirdə rəsmi səviyyədə iddia olunub ki, guya ki, 1919-cu ilin 24-25 dekabr tarixlərində ermənilər "genosid"ə məruz qalıblar. Guya ki, 1919-cu ildə "Ermənistan dövləti" bu "genosid"lə bağlı Antanta ittifaqına üzv dövlətlərə müraciət edib, lakin bunun qarşısı alınmayıb. Bundan başqa, ermənilər həm də yalandan iddia ediblər ki, Əylisdə, Cuğada, bütövlükdə isə Naxçıvan ərazisində mövcud olmuş "erməni abidələrini" məhv ediblər, buradan ermənilərin "izlərini" siliblər. Guya Azərbaycan Ordusu "yüzlərlə erməni mədəniyyətinə aid xaçqarı vandalcasına məhv edib". Erməni rəsmiləri işğal etdikləri Azərbaycan torpaqlarında həyata keçirilən vandallıqları unudub utanmadan deyirlər ki, "Ermənistan erməni xalqının tarixi vətənlərində, o cümlədən də Artsaxda yaşamaq və inkişaf etmək hüququnu bərpa etmək əzmindədir (?)". Bu yerdə oğru elə bağırdı ki, doğrunun bağrı yarıldı.

Azərbaycan Milli Elmlər Akademiyasının Qafqazşünaslıq İnstitutunun erməni̇şünaslıq şöbəsinin müdiri, professor Qasım Hacıyevin sözlərinə görə, ermənilər nəinki 1915-ci, 1919-cu illərdə, ümumiyyətlə, tarixdə heç bir genosidə məruz qalmayıblar. Ümumiyyətlə, tarixən Naxçıvanda ermənilərin yaşamadığını, ora ilk ermənilərin XIX əsrin sonlarına yaxın Çar Rusiyası tərəfindən köçürüldüyünü deyən Q.Hacıyevin sözlərinə görə, Əylisdə, Cuğada ermənilərin hər hansı bir qırğına məruz qalması barədə iddialar növbəti erməni yalanından başqa bir şey deyil. "Ermənilərin saxta genosid oyunlarından artıq bütün dünya iyrənib. Bilirsiniz ki, ermənilər bizim torpaqlara Çar Rusiyası dövründə İran və Türkiyə ərazisindən köçürülüb. Bu bir həqiqətdir. "Albaniya, Azərbaycan yoxdur, bura Şərqi Ermənistandır" iddiasını zaman-zaman irəli sürən ermənilər saxta genosid iddialarından da əl çəkmirlər. 1919-cu ildə ermənilər yox, Azərbaycan türkləri genosidə uğrayıb, Daşnaksütyun üzvlərinin, Dronun, Njdenin, Andranikin Naxçıvanda, Əylisdə, Cuğada və digər yerlərdə ermənilərə məxsus yaşayış yerləri, qəbiristanlıqlar, abidələr olmayıb. Ermənilərin bu iddiası da həqiqəti əks etdirmir. Əylisdə, Cuğada və Naxçıvan ərazisindəki xristianlıq

**"Bu növbəti erməni yalanıdır"**

və başqalarının dəstələri Naxçıvanda, Zəngəzurda, digər ərazilərimizdə azərbaycanlıları qırıblar, evlərini, yurdlarını talan ediblər. Ermənilərə qarşı nə Əylisdə, nə Cuğada, nə də digər yerlərdə hər hansı bir qırğın törədilməyib, bu növbəti erməni yalanıdır. Gördülər ki, qondarma erməni soyqırımı haqqında uydurmaları işə yaramır, indi də ermənilərin Azərbaycan ərazisində "genosidə" məruz qaldığını iddia edirlər. 1919-cu ildə ermənilərə qarşı heç bir qırğın baş verməyib. Ümumiyyətlə, abidələri Albaniya dövrünə aiddir və bunun da ermənilərlə heç bir əlaqəsi yoxdur".

1919-cu ildə Ermənistan hökumətinin Antantaya üzv dövlətlərə müraciət etməsi ilə bağlı hər hansı bir faktın olmadığını deyən Q.Hacıyev bildirdi ki, baş verməyən bir hadisə barədə hər hansı bir müraciətin edilməsi gülüncdür. "Azərbaycan torpaqlarında yaradılan həmin "Ararat" erməni dövlətinin qurulmasında həmin Antantaya üzv olan dövlətlərin az rolu olmayıb. 1918-ci ildə Qafqaz Seymi dağıldıqdan sonra Gürcüstanda müstəqil Gürcüstan Respublikası, Azərbaycanda isə Xalq Cümhuriyyəti yaradıldı. Bundan sonra isə indiki Ermənistan ərazisində erməni dövləti yaradıblar. Bunu dünya tarixçiləri də yazırlar. Hətta qeyd edirlər ki, Gürcüstan və Azərbaycan öz dövlət quruculuğu ilə məşğul olduğu bir vaxtda ermənilər əllərinə silah alıb Gürcüstana və Azərbaycana qarşı torpaq, ərazi iddiası irəli sürdülər, çoxlu soyqırım törətdilər. ABŞ-ın Qafqazdakı nümayəndəsi o vaxt ABŞ hökumətinə yazırdı ki, bizim dövlətin ayırdığı maliyyə vəsaiti ilə ermənilər məişətlərini düzəltmək əvəzinə, silah alıb başqa xalqlara qarşı basqınlar, soyqırımlar, qırğınlar törədirlər.

Tarixdə yalnız türklərə qarşı deyil, digər xalqlara qarşı da genosidlər törədən ermənilərin bu gün Əylisdə və Cuğada "genosidə məruz qalmalarının 100 illiyi"ni qeyd etməsi gülüncdür. Yüz il bundan əvvəl erməni daşnakları Azərbaycan türklərini genosidə məruz qoyublar".

***İradə SARIYEVA***

# Njde məsələsində Putindən Paşinyana dalbadal iki zərbə - tarixi saxtalaşdırmayın, Hitlerlə görüşmək məsuliyyət yaradır...

**Bu günlərdə Sankt-Peterburqda keçirilən MDB dövlət başçılarının qeyri-rəsmi görüşündə çıxış edən Rusiya Prezidenti Vladimir Putin Ermənistanın hazırkı hakimiyyətinin faşist Njde ilə bağlı sərgilədiyi siyasətə yönəlik dolayısı ilə iki zərbə vurdu.**

*"Hesab edirəm ki, Putinin bu mövqeyi Ermənistana bir mesajdır"*

***Məhəmməd Əsədullazadə:** "...Ermənistandan bu abidənin sökülməsini tələb etməlidir"*



Putin Sankt-Peterburqda çıxışında bildirdi ki, İkinci Dünya Müharibəsi ilə bağlı tarixin saxtalaşdırılması yolverilməzdir. Onun fikrincə, İkinci Dünya Müharibəsindən əvvəl tarixdəki dönüş nöqtəsi Molotov-Ribbentrop Paktı deyil, Çexoslovakiyanın bölünməsi ilə bağlı Münhen razılaşması idi. Çünki Molotov-Ribbentrop Paktı Hitler Almaniyası ilə digər dövlətlər tərəfindən imzalanmış oxşar sənədlərdəki son sənəd idi. Ondan əvvəl bir neçə sənəd imzalanıb.

İkinci məqam o idi ki, Putin çıxışında o zaman Hitlerin özü ilə görüşməyin də məsuliyyət yaratdığını qeyd edib. Rusiya lideri, eyni zamanda, vurğulayıb ki, tarixi sənədləri oxuduğu zaman kimlərin nasistləri dəstəklədiyi, kimlərin isə dəstəkləmədiyi məlum olur: "Digər ölkələrin liderlərindən fərqli olaraq, Stalin Hitlerlə görüşləri ilə özünü ləkələməyib. Stalinə olan münasibətdən asılı olmayaraq, deyə bilərik ki, o, Hitlerlə birbaşa təmasa keçməməklə özünə xələl gətirməyib. O, Hitlerlə görüşməyib. Lakin Avropanın öndə gedən liderləri bunu etmişdi".

Rusiya lideri qeyd edib ki, 1934-cü ildən bəri, əslində, bir çox Avropa ölkəsi Nasist Almaniyası ilə "əməkdaşlıq üçün hüquqi əsas" yaratmağa başladı: "Bu dövlətlərin rəhbərlərinin böyük əksəriyyəti Hitlerlə şəxsən ünsiyyət qurdu və müvafiq sənədlərə imza atdılar".

Bu iki məqam Njde məsələsində Putindən Paşinyana dalbadal iki zərbədir. Hansı ki, Paşinyan hər vasitə ilə Njdenin Hitlerlə görüşməsinə haqq qazandırmağa çalışır.

Sözügedən məsələ ilə bağlı fikirlərini "Bakı-Xəbər"lə bölüşən politoloq Məhəmməd Əsədullazadənin sözlərinə görə, bununla Rusiya Prezidenti Ermənistana öz yerini göstərmiş oldu: "Rusiyanın İkinci Dünya Müharibəsi ilə bağlı mövqeyinin bu qədər geniş müstəvidə olması əsasən faşizm ideyalarının təzahürlərinin ortaya çıxması ilə əlaqədardır. Bunun da təzahürləri əsasən Ermənistanda özünü göstərir. Sankt-Peterburqda keçirilən sammitdə Putinin Hitler və müharibə ilə bağlı qeyd etdikləri, təbii ki, sıradan bir yanaşma deyil. Ona görə ki, bu müharibədə faşizm sıralarında xidmət edənlər qəhrəmanlaşdırılır və onlara heykəllər qoyulur. Bu da faşizmin müasir dünyada yenidən inkişafına gətirə bilər. Hesab edirəm ki, Putinin bu mövqeyi Ermənistana bir mesajdır. Çünki Paşinyan Qaregin Njdeni müdafiə edir və hər vasitə ilə onun əməllərinə haqq qazandırmağa çalışır. Bununla Ermənistan liderlərinin necə bir faşist düşüncədə olduğunu göstərir. Rusiya isə faşizmə qarşı mübarizədə fəallığını qoruyub saxlamağa çalışır. Ancaq onun forpostu olan Ermənistan bu bəşəri cinayət ideyasını yaşadır. Hesab edirəm ki, Putin bu məsələdə daha da praqmatiklik nümayiş etdirib Ermənistandan bu abidənin sökülməsini tələb etməlidir. Yoxsa, MDB məkanında faşizm Ermənistan tərəfindən daha da inkişaf etdiriləcək.

Bütün hallarda, qeyri-rəsmi görüşdə Putinin İkinci Dünya Müharibəsi ilə bağlı məqamlara toxunması Paşinyanın Njde ilə bağlı siyasətinə zərbədir".

***Vidadi ORDAHALLI***

# Putinin nümayəndəsindən Ermənistana - özünüzə tərəfdaşları elə axtarın ki, Rusiya ilə münasibətlər...

**Rusiyanın Ermənistandakı səfiri Sergey Kopırkin keçirdiyi mətbuat konfransında bildirib ki, Qarabağ münaqişəsinin həlli Rusiyanın xarici siyasətinin prioriteti olub və prioriteti olaraq qalır: "Rusiya tərəflər üçün məqbul variantlar əsasında problemin sülh yolu ilə həllinə çalışan bir vasitəçidir".**



***Hatəm Cabbarlı:** "Paşinyan hakimiyyəti nə qədər manevrlər etməyə can atsa da, Rusiya ilə müttəfiqlik münasibətlərini qoruyub saxlamağa məhkumdur"*

Səfir sonra bildirib ki, Rusiya-Ermənistan münasibətləri dünyada cərəyan edən münasibətlər sisteminə adaptasiya edilməlidir: "Biz Ermənistanda gedən prosesləri yaxından izləyirik. Müttəfiq axtarışı Ermənistanın suveren işidir, ancaq bu, elə yumşaq tərzdə aparılmalıdır ki, ölkələrimiz arasındakı münasibətlərə xələl gətirməsin. Erməni KİV-i səfirin bu xəbərdarlığını ünvanlarına olan hədə kimi qəbul edir və qeyd edirlər ki, səfir münasibətlər sistemində soyuqluq yaradan elementləri təəssüf ki, öz adları ilə söyləmir.

Səfirin çıxışı niyə Ermənistanda ciddi narazılıq yaradıb?

Siyasi elmlər doktoru Hatəm Cabbarlı "Bakı-Xəbər"ə bildirdi ki, səfirin bu sözündən Ermənistan cəmiyyətinin narahatlıq keçirməsi təbiidir: "Çünki, faktiki olaraq, Rusiyanın Ermənistandakı səfiri İrəvanın yeni müttəfiq axtarışına çıxdığından xəbərdar olduqlarını dilə gətirib. Ancaq bunu çox diplomatik tərzdə ifadə edib ki, Ermənistan belə səyləri bir qədər ehtiyatla həyata keçirməlidir. Son vaxtlar Ermənistanın doğrudan da belə çabaları ciddi nəzərə çarpır. Xüsusilə də ABŞ Senatının qondarma soyqırımı qəbul etməsindən sonra Ermənistandan Vaşinqtona meyl daha da artıb. Burda ABŞ-dakı erməni lobbisinin də rolunu xüsusi qeyd edə bilərik. Onlar Senatın jestini əsas tutaraq, Ermənistan hakimiyyətinə Rusiyadan uzaqlaşıb, ABŞ-a daha çox meyl etməyi tövsiyə edirlər. Təbii ki, Rusiya bunların hamısını görür və öz ehtiyat tədbirlərini nəzərdə tutur. İlk belə tədbiri bu oldu ki, səfirin dili ilə Ermənistanı xəbərdar etsin. Proseslərin ardı Ermənistanın davranışından asılı olacaq".

Ekspertin sözlərinə görə, Ermənistanın bəhanəsi Rusiya üçün keçərli deyil: "Onlar guya Rusiyadan Azərbaycan və Türkiyə ilə yaxınlığa görə incimək istəyirlər. Amma Rusiya üçün belə arqumentlər keçərli deyil. Böyük bir güc kimi, Rusiya manevr imkanlarını öz daxili işi sayır və kiməsə imkan verməz ki, bu yöndə ona məsləhət versin.

**Ermənistan bu münasibətlər kontekstində Rusiya ilə paritet əsaslarla danışa bilməz. Çünki vassal ölkənin belə bir gücü yoxdur. Paşinyan hakimiyyəti nə qədər manevrlər etməyə can atsa da, Rusiya ilə müttəfiqlik münasibətlərini qoruyub saxlamağa məhkumdur. Real vəziyyət Ermənistana bu istiqamətdə ciddi manevr şanslarını tanımır".**

***Məhəmmədəli QƏRİBLİ***

# Azərbaycana silah embarqosunu qaldıran Avropa dövlətlərinin sayı 10-a çatdı...

## *Azərbaycan uğrunda Rusiya və Qərbin yeni rəqabəti başlanır*

**Məlum olduğu kimi, Azərbaycan Rusiyanın Su-57 tipli ən modern beşinci nəsil qırıcı təyyarələrini almağa maraq göstərir. Xatırladaq ki, bu xüsusda növbəti məlumatı Rusiyanın "Vedomosti" nəşri yayıb. Burada qeyd olunurdu ki, iki ölkə arasında hərbi texniki əməkdaşlıq məsələləri Azərbaycan prezidenti İlham Əliyevlə Rusiyanın dövlət başçısı Vladimir Putinin bu il oktyabrın 3-də Soçi şəhərində keçirilmiş danışıqlarında da müzakirə edilib.**

Həmçinin Azərbaycanın xarici işlər naziri Elmar Məmmədyarov da rusiyalı həmkarı Sergey Lavrovla danışıqlarından sonra Rusiya tərəfilə silah tədarükünə dair sövdələşmə ehtimalını dilə gətirib. Bununla yanaşı, Azərbaycanın Su-57-lərə maraq göstərməsi Ermənistanın Rusiyadan Su-30SM tipli dörd qırıcı təyyarəni almasına cavab kimi göstərilir.

İndi də səslənən məlumatlardan belə bəlli olur ki, Azərbaycan istənilən halda ən müasir döyüş təyyarələrini əldə edəcək. Bunu rus ekspert Aleksandr Razuvayev də xüsusi olaraq vurğulayır. O, Rusiyanın prosesdə maraqlı tərəf qismində çıxış etdiyini vurğulayır. Ekspert bildirir ki, Rusiyanın hərbi-sənaye kompleksi neftqaz və "Rosatom"la birlikdə qlobal iqtisadiyyatda üstünlüyü təmin edən üç rəqabət amilindən biridir. Bu fonda həm də Rusiya Qərb dünyasına aid olmayan ölkələri silahla təchiz etmək üçün bütün imkanlara sahibdir. Ekspertin sözlərinə görə, böyük gəlirlər Bakıya dünya silah bazarında özünü inamlı alıcı kimi hiss etməyə imkan verir: "Son 10 il ərzində Azərbaycan təqribən 5 milyard dollar məbləğində Rusiya silahı əldə edib. S-300 PMU-2 zenit raket sistemlərinin iki divizionunun, 100-ə qədər T-90S tankının və 118 ədəd BMP-3 piyada döyüş maşınının, 18 özüyeriyən "Msta-S" artilleriya qurğusunun, 18 ədəd "Smerç" yaylım atəşi reaktiv sistemlərinin işəsalma qurğularının və digər hərbi texnikanın alınması üçün müqavilələr imzalanıb. Azərbaycan və Rusiya prezidentləri İlham Əliyevlə Vladimir Putinin 3 oktyabr 2019-ci ildə Soçidə baş tutmuş görüşü zamanı hərbi-texniki əməkdaşlıq məsələləri də qaldırılıb". Ekspertin sözlərinə görə, indi yeni və daha vacib anlaşma mümkündür:"Bakı Su-57-ləri alacaq ki, bu da Ermənistanın 4 ədəd Su-30 SM qırıcısını əldə etməsinə cavabdır. Ermənistan kasıb ölkədir, ancaq KTMT üzvüdür. Maraqlıdır ki, Bakının əsas müttəfiqi olan Türkiyə də Su-57-lərə maraq göstərir". Razuvayev qeyd edib ki, Bakı seçim qarşısındadır, məsələn, Rusiya təyyarələrinin əvəzinə daha ucuz başa gələn Çin-Pakistan istehsalı olan qırıcıları əldə edə bilər: "Müvafiq olaraq, Bakı seçimini Moskvanın xeyrinə etsə, S-400-lərin Türkiyəyə çatdırılması halında olduğu kimi, Rusiya dövlət kreditinə arxayın ola bilər". Rusiya Azərbaycanla əməkdaşlıqda maraqlıdır". Bu açıqlamalardan aydın görünür ki, Rusiya özü yeni hərbi texnikaların Azərbaycana satışında maraqlıdır. Bunu şərtləndirən digər mühüm səbəblərdən biri artıq Qərb ölkələrinin Azərbaycana xüsusi maraq göstərməsi, onunla hərbi əməkdaşlığı dərinləşdirmək niyyətidir. Araşdırmalar göstərir ki, artıq 2018-2019-cu illərdə Avropanın 10-a yaxın dövləti Azərbaycana tətbiq edilən silah embarqosunu qaldırıb və ya yumşaldıb. Bu barədə "azeridefence" portalı hərbi sənaye kompleksindəki mənbələrə istinadən yaydığı məlumatda göstərir ki, belə ölkələrin arasında əvvəlki illərdə Ermənistanla hərbi münaqişəni əsas gətirərək Azərbaycana sərt embarqo tətbiq edən Qərbi və Şimali Avropa dövlətləri üstünlük təşkil edir. Embarqonun aradan qaldırılmasından dərhal sonra Azərbaycanın hərbi qurumları ilə Avropanın müdafiə sənayesi şirkətləri arasında ilk müqavilələr imzalanıb və realizasiya mərhələsinə qədəm qoyulub. Qeyd edək ki, bəzi Avropa dövlətləri eyni qaydada münaqişənin digər tərəfi olan işğalçı Ermənistana da tətbiq olunan silah embarqosunu aradan qaldırıb və ya məhdudiyyətli satışlara "yaşıl işıq" yandırıblar. Amma Ermənistan Rusiyadan başqa digər ölkələrdən silah almaq üçün həm lazımi vəsaitə malik deyil, həm də Moskva buna icazə vermir.




Azərbaycanın böyük maliyyə imkanları isə indi Avropanı və ABŞ-ı daha çox cəlb edir. Elə bu səbəbdən onların Azərbaycanla hərbi sahədə əməkdaşlıq üçün fəaliyyəti də genişlənir. Bunlar isə Rusiyanın da diqqətindən yayınmır. Moskva bu fonda Azərbaycanla hərbi əlaqələrin itirilməsini istəmir. Hətta bunun üçün Azərbaycana kreditlə hərbi məmulatları satmağa hazır olduğunu da bildirir. Məsələyə eyni prizmadan Qərb ölkələri də yanaşır. Məsələn, artıq bəllidir ki, Fransa şirkətləri Azərbaycanla mütəmadi əlaqə saxlayır. Burada söhbət Fransa hərbi sənayesində əhəmiyyətli yer tutan şirkətlərdən gedir. Onlardan biri olan "Naval Group" Azərbaycanın Hərbi Dəniz Qüvvələri ilə hərbi gəmilərin inşası ilə bağlı müvafiq razılıqlar əldə edib. "ECA Robotics" şirkəti sualtı mina təmizləmə, kəşfiyyat avadanlıqları, "MBDA Systems" şirkəti isə hava hücumundan müdafiə və sahil mühafizə raket sistemlərini təklif edib. Böyük Britaniya, Norveç, İsveç, Çexiya, Almaniya kimi ölkələr də Azərbaycanla əməkdaşlığa xüsusi maraq göstərir. Eləcə də ABŞ-ın böyük hərbi sənaye şirkətləri Azərbaycana maraq göstərənlər sırasındadır. Bütün bunlar onu göstərir ki, Azərbaycan kimi mühüm bir bazar uğrunda Qərb və Rusiya arasında yeni rəqabət başlanır. Bu isə Azərbaycana daha sərfəli şərtlərlə silah əldə etmək imkanları yaradır.

***Nahid SALAYEV***

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu
KİVDF
www.kivdf.gov.az

**Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi**




# Paşinyana daxili ictimai qınağın əsas tezisi - Azərbaycan öz maraqlarını daha ardıcıl şəkildə irəli apara bilib...

**Dağlıq Qarabağ münaqişəsinin həlli istiqamətində Nikol Paşinyan iqtidarının kifayət qədər naşı və ziddiyyətli siyasət sərgiləməsi bu gün işğalçı Ermənistanın özündə belə böyük narazılıqla müşayiət olunmaqdadır. Bu xüsusda səslənən fikirlərdən belə bəlli olur ki, Paşinyanın mövcud Qarabağ siyasəti prosesin dinc müstəvidə çözümünü sadəcə dalana dirəyir.**

Erməni analitik Karen Bekaryan da bununla bağlı açıq mətnlə vurğulayır ki, Qarabağ məsələsi, danışıqlar prosesi, həll prosesi ilə heç vaxt maraqlanmayan bir adam və onunla birlikdə bir komanda Ermənistanda hakimiyyətə gəlib. Belə vəziyyət, öz növbəsində, hadisələrin daha təhlükəli məcrada inkişafına zəmin yaradır ki, Ermənistan da bundan əziyyət çəkən əsas tərəfə çevrilir.

Bekaryanın sözlərinə görə, həm cəhalət, həm ambisiyalar problemi, həm də institutların fəaliyyətsizliyi Azərbaycanın beynəlxalq ictimaiyyət arasında da mövqelərinin əsaslı surətdə güclənməsinə gətirib çıxarıb: "Bakının fəaliyyəti ilə Ermənistanda yaxından maraqlanmayıblar. Maraqlanmamaq müəyyən bir müddət məlumatsızlıq yaradıb ki, nəticədə Azərbaycan öz maraqlarını daha ardıcıl şəkildə irəli apara bilib". Analitik qeyd edib ki, Ermənistandakı bu durum və Qarabağ məsələsində ziddiyyətli davranışı təhdidlərin çoxalmasını, müharibə təhlükəsinin artmasını şərtləndirib:"Azərbaycan imic formalaşdırıb ki, onlar məsələnin danışıqlar yolu ilə həll olunması üçün vaxt verəcək qədər yaxşıdırlar. Bunu da indi bütün dünya qəbul edir. Bakı göstərir ki, Ermənistan verilən fürsətdən istifadə edə bilmədiyindən savaşdan başqa alternativi qalmır". Elə Ermənistan Respublika Partiyasının sözçüsü Eduard Şarmazanov da məsələyə eyni prizmadan yanaşır. Ermənistan parlamentinin sabiq sədr müavini olan bu şəxs bildirib ki, Paşinyanın səsləndirdiyi cəfəngiyatlar Qarabağ məsələsində İrəvanı daha çətin duruma salır:"Məsələn, baş nazir vurğulayır ki, aprel döyüşləri Azərbaycanın Avrasiya İqtisadi Birliyinə daxil olması üçün Rusiya və Azərbaycan tərəfindən razılaşdırılmış müharibə olub. Nikol Paşinyan nə danışdığının fərqindədir? Bir dəfə də onu çağırın və soruşun ki, bu cür informasiya onda haradandır? O hələ də belə açıqlamalarla Rusiya ilə münasibətləri korlamaqda, Ermənistanı çətin vəziyyətə salmaqda davam edir".

Bununla yanaşı, Şarmazanov qeyd edib ki, bütöv bir il ərzində Paşinyanın danışdığı heç olmasa bir "agent" belə aşkara çıxarılmayıb:"Ötən ilin əvvəllərində biz Paşinyan tərəfindən İranda xarici agentlərlə bağlı bəyanata şahid olduq, bir il keçib və o, hansısa xarici agentin adını açıqlamayıb. Üstəlik, təhlükəsizlik orqanları hansısa xarici agenti aşkara çıxarmayıb və zərərsizləşdirməyib. Bu sadəcə rüsvayçılıqdır. Dövlət başçısı xarici agentlə məşğul olan siyasi xadimlərin olduğunu bildirdiyi halda, bu bütöv bir il ərzində heç olmasa bir agent belə aşkara çıxarılmayıb. Onun Qarabağ məsələsinə yanaşması da belə əsassız mövqelər üzərində qurulub. Bu hal da Ermənistanı indi beynəlxalq miqyasda çətin vəziyyətdə qoyur, Azərbaycanı isə daha güclü mövqe sahibinə çevirir". Partiya sözcüsü 2019-cu ilin Paşinyan və komandasının həyata keçirmədiyi vədlər ili olduğunu bildirib:"2019-cu il siyasi mənada Paşinyan və hakim komandanın həyata keçirmədiyi vədlər ili idi. Nəinki yerinə yetirilməmiş vədlər, həmçinin absurd bəyanatlar və dövlət institutlarına hücum ili idi. Bir il sonra bizim yerinə yetirilməmiş vədlərimiz var. Ölkəyə gələn yoxdur, üstəlik, rəsmi məlumatlara görə, Ermənistan əhalisinin sayı təxminən 12 min nəfər azalıb. İnvestisiyalar yoxdur, investisiyalar təxminən 60 milyon dollar azalıb. Ermənistanın regionda və xaricdə mövqeyi zəifləyir. Belə vəziyyətdə bizi Qarabağ məsələsində də müsbət heç nə gözləmir. Ölkənin zəifləməsi Azərbaycanı, onun yaxını Türkiyəni Ermənistana daha çox təzyiq göstərməyə həvəsləndirəcək. Bizim isə artıq hansısa arxalana biləcəyimiz müttəfiqimix yoxdur. Paşinyan hamını Ermənistandan uzaq salır".

Şarmazanov etiraf edir ki, bu vəziyyətdə Qarabağ münaqişəsinin hərbi həlli Ermənistan üçün böyük təhdidlər deməkdir. Erməni ekspert Kiro Manoyan da bildirir ki, yeni savaş başlasa, bu, aprel döyüşlərindən də təhlükəli olacaq:"Bu hakimiyyət Qarabağ məsələsinin həllində nə strategiyaya, nə də konsepsiyaya malikdir və müxtəlif anlarda müxtəlif şeylər söyləyir. Bütün bunlar göstərir ki, strategiya və konsepsiya həqiqətən yoxdur. Belə vəziyyət bizi təhlkəli savaşa yaxınlaşdırır". Manoyanın sözlərinə görə, danışıqlar masasında həqiqətən də mərhələli həll sənədinin olub-olmamasından asılı olmayaraq, bu kimi cəhdlər hələ 5-6 il əvvəl olub:"Bu ana qədər danışıqların mahiyyəti bu olub ki, həll planı mərhələlərlə həyata keçirilə bilər. Digər tərəfdən, strategiyaya malik olmamaq bizi təhlükəyə ata bilər. Hesab edirəm, növbəti müharibə 2016-cı ildəkindən daha ağır olacaq, çünki Azərbaycan hazırlıq görüb. Müharibə qaçılmazdır. Biz hər zaman buna hazır olmalı olsaq da reallıq fərqlidir. Ermənistan azərbaycanla döyüşə hazır sayıla bilməz".

Maraqlıdır ki, Paşinyana yaxınlığı ilə tanınan Ermənsitanın "Sasna Tsrer" partiyası da hakimiyyətin Qarabağ siyasətindən narazılıq edir. "Sasna Tsrer" partiyasının yaydığı bəyanatda bu xüsusda qeyd olunur:"2019-cu il dekabrın 23-də baş tutmuş təhlükəsizlik şurası iclası zamanı Nikol Paşinyanın səsləndirdiyi bəyanatlar bu nəticəyə gəlməyə vadar edir ki, o, xüsusilə Qarabağ məsələsində ziddiyyət batağında batır. O, "Qarabağ Ermənistandır, vəssalam" bəyanatına paralel olaraq Qarabağın Ermənistandan ayrılmalı və Ermənistanın hesabına subyektləşməli olduğunu, buna görə də oradakı "seçki" teatrını qınayanların sülhə təhlükə yaratdığını iddia edir. Bu ziddiyət o qədər dərinləşib ki, utancverici nəticəyə çatıb, baş nazir Milli Təhlükəsizlik Şurasının iclasını "1 mart" və "Laçın qırğınının" (Jirayr Sefilyan və tərəfdarlarının polis tərəfindən döyülməsi.) cəlladı, bədnam general Samvel Karapetyanla birlikdə keçirir. Biz bənzər siyasəti qınayırıq və iddia edirik ki, o, Ermənistanın suverenliyinə ciddi təhlükə yaradır, Moskva və Bakının su dəyirmanını su ilə doldurur".

Ermənistan Milli Təhlükəsizlik Xidmətinin keçmiş direktoru David Şahnazaryan isə vurğulayır ki, Qarabağ münaqişəsinin nizamlanması üçün aparılan danışıqlar prosesində Ermənistan artıq əlverişli gündəmi itirib:"Bu gündəm Ermənistan hakimiyyətinin səyləri sayəsində əldən verilib. Nəticədə, bu gün Dağlıq Qarabağın azərbaycanlı icmasının faktiki olaraq legitimliyi aldığını görürük. Bu barədə ATƏT-in Minsk Qrupunun həmsədr ölkələrinin müxtəlif rəsmiləri danışır. Növbəti problem hakimiyyətin səsləndirdiyi düsturdur. Həmin düstura görə, istənilən nizamlama Ermənistan, Azərbaycan və Qarabağ üçün əlverişli olmalıdır. Bu, "öz müqəddəratını təyinetmə hüququ" ilə tamamilə ziddiyyət təşkil edir". Onun sözlərinə görə, indi Azərbaycan beynəlxalq ictimaiyyət tərəfindən zərərçəkmiş kimi qəbul edilir və ölkə daha bir hərbi hücuma haqq qazandıra biləcək dəlillər arsenalını əldə edib. Şahnazaryan hesab edir ki, hərbi əməliyyatlar təhlükəsi xeyli artıb və müharibə hər an başlaya bilər. Bu yanaşmalardan aydın görünür ki, Qarabağ məsələsinin hərbi həll ehtimalı, əslində Ermənistanda ciddi qorxu ilə qarşılanır. Hadisələr bu səpkidə inkişaf edəcəyi təqdirdə də əsas günahkar qismində Ermənistan hakimiyyəti göstərilir. Çünki məhz onun absurd mövqeyi üzündən danışıqlar prosesi dalana dirənmiş vəziyyətə düşüb.

Faktdır ki, sülh danışıqları sona qədər getməsə, Azərbaycan ordusu Ermənistana lazım olan cavabı verəcək. Ermənistanın isə ordu və digər sahələrdə ciddi problemləri getdikcə daha dəhşətli vəziyyət almağa başlayır. Məhz belə vəziyyətdə mümkün savaş Ermənistanı çökdürməkdən başqa heç nəyə xidmət etməyəcək. Hesab edilir ki, danışıqların dalana dirənməsi fonunda Azərbaycan yenidən hərbi əməliyyatlara başlayarsa, aprel döyüşlərində və Günnüt əməliyyatlarında olduğu kimi, Ermənistan növbəti dəfə Silahlı Qüvvələrimizin sərt zərbəsinə tuş gələcək. Bu fonda davamlı olaraq güclənən və regionun ən qüdrətli ordusuna çevrilən Azərbaycan ordusu düşməndə böyük vahimə yaradır. Çünki ordumuz istənilən an işğal altında olan torpaqlarımızı azad etməyə, düşmənin bütün strateji hədəflərini məhv etməyə qadirdir. Bütün bunlar isə, Ermənistanla aparılan danışıqlar ölkəmiz üçün istənilən şərtlərlə yekunlaşmayacağı təqdirdə, işğal altında olan ərazilərin azad edilməsi üçün Azərbaycanın güc yolu ilə istəyinə çatmasına lazımi imkanlar yaradır. Bunu, Paşinyan hakimiyyətindən fərqli olaraq, Ermənistanda aydın şəkildə sezənlərin sayı az deyil. Elə buna görə də Paşinyanın Qarabağ siyasəti Ermənistanın özündə narazılıqla qarşılanır. Beləliklə, yaranmış vəziyyət Qarabağ məsələsində yaxın tezlikdə müəyyən yeniliklərin olacağını istisna etmir. Azərbaycan ya hərb, ya da sülh yolu ilə məsələnin həllində artıq irəliləyişlərin olmasında israrlıdır. Ermənistanda hadisələrin inkişafının hansı nəticələrə gətirib çıxara biləcəyini görənlər Paşiynanın artıq müəyyən gedişlər etməsini, sülh danışıqlarında nəticə olmasını istəyir. Belələri yenidən Azərbaycanın hərbi gücü ilə qarşılaşmağın ölkələri üçün nə demək olduğunu yaxşı bilir.

**RYazı Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyilə çap olunur.**

# Təmsil etdiyi köhnə dairədən yeni dairələrə keçid edən deputatlar - köhnə dairələrdən "qaçışmanın" səbəbləri...

**Azərbaycanda budəfəki parlament seçkilərinin çox gərgin mübarizə şəraitində keçəcəyinə şübhə yoxdur. Biz bunu seçkiqabağı mühitdə cərəyan edən hadisələrdən də aydın sezə bilirik. Maraqlıdır ki, 9 fevral 2020-ci il tarixdə keçiriləcək növbədənkənar parlament seçkilərinə Milli Məclisin indiki tərkibinə daxil olan deputatlar da qatılmaq istəyirlər.**

*"Onlar barədə məlumatları yeni seçicilərə də çatdırmaq lazımdır"*

***Samir Adıgözəlli:** "Yerdəyişmə ilə xalqı aldatmaq istəyənləri heç də yaxşı aqibət gözləmir"*




İstefaya göndərilən parlamentdə təmsil olunan 20-dən çox deputat iddiasını ortaya qoyub.

Bunlar Hacı Salayev, Aqil Abbas, Ziyad Səmədzadə, Jalə Əliyeva, Zahid Oruc, Əflatun Amaşov, Sahib Alıyev, Azay Quliyev, Adil Əliyev, Ülvi Quliyev, Çingiz Qənizadə, Eldar Quliyev, Novruz Aslanov, Qənirə Paşayeva, Rasim Musabəyov, Madər Musayev, Bəxtiyar Əliyev, Fəttah Heydərov, Səttar Möhbalıyev, Musa Qasımlı, Kamran Nəbizadə, Rüfət Quliyev, Azər Kərimli, Qüdrət Həsənquliyev, Araz Əlizadə, Fazil Mustafadır.

Qeyd edək ki, Milli Məclisin indiki tərkibinə daxil olan deputatların böyük çoxluğu parlamentin buraxılmasının lehinə olub. Milli Məclisin buraxılması isə Prezident İlham Əliyevin başlatdığı islahatlar kampaniyası ilə izah edilib. Bildirilib ki, indiki parlament yarıtmaz fəaliyyəti ilə islahatlara mane olur. Deputatlar da Milli Məclisin buraxılmasına səs verməklə bunu təsdiq ediblər. Bu baxımdan onların yenidən namizədliklərini irəli sürmələri cəmiyyət tərəfindən birmənalı qarşılanmır. Buna baxmayaraq, köhnə deputatların çoxu elə öz seçildiyi dairədən namizədliyini irəli sürməyə üstünlük verir. Ancaq onların arasında elələri də var ki, dairələrini dəyişmək qərarına gəliblər. Köhnə millət vəkillərinin bu taktikasını nə ilə izah etmək olar?

İctimai-Siyasi Proseslər Beynəlxalq Əlaqələr Mərkəzinin rəhbəri Samir Adıgözəlli "Bakı-Xəbər"ə açıqlamasında bildirdi ki, onun köhnə parlamentdə təmsil olunan millət vəkillərinin yenidən deputat olmaq istəyinə münasibəti yaxşı deyil: "Bu adamların özləri səsvermədə əl qaldırıblar ki, biz yaxşı işləyə bilməmişik, bizi buraxın. Bu da baş verib. İndi bunlar yenidən niyə deputat olmağa qərar veriblər? Düzdür, hüquq bunu qadağan etmir. Ancaq manadatı daşımaq məsələsində mənəvi kriteriyalar da önəmli sayılmalıdır. Cənab Prezident yerli telekanallara verdiyi müsahibədə deputatların yarıtmaz fəaliyyətindən danışdı. Çox dəqiq də izah verdi. Bəli, elə deputatlar var ki, seçiləndən sonra bir dəfə də olsun həmin əraziyə gedib vətəndaşlarla görüşmür, onların problemləri ilə maraqlanmır. Mən yerlərdə vətəndaşlarla görüşürəm. Elə deputatlar var ki, əhali onları daşqalaq etməyə hazırdır. Deyirlər ki, birdə həmin dairəyə gəlsə, qovacayıq. Yerlərini dəyişməklə bağlı manevr edənlər də məhz deyilən kateqoriyaya aid millət vəkilləridir. Bir neçə seçkidə seçiciləri aldadıblar, indi üzləri yoxdur onlarla qarşılaşmağa. İstəyirlər ki, yerdəyişmə ilə izləri itirsinlər, indi də başqa bir dairənin vətəndaşlarını aldatsınlar. Ancaq çox nahaq belə taktika seçiblər. Azərbaycan elə də böyük ölkə deyil.

Burada hamını yaxşı tanıyırlar. Bundan əlavə, texnoloji vasitələr sürətlə inkişaf edib. Məlumatın yayılması sərhəd, məsafə tanımır. Yerdəyişmə ilə xalqı aldatmaq istəyənləri heç də yaxşı aqibət gözləmir. Onlar barədə məlumatları yeni seçicilərə də çatdırmaq lazımdır. Dediyiniz kateqoriyaya aid birisi ilə mən alternativ olmaq istəyirəm. Görüm onun danışmağa bir sözü olacaqmı? Qısası, həmin adamlara demək istəyirəm ki, imkan versinlər, ölkədə normal bir parlament formalaşsın. Prosesə müxtəlif vasitələrlə mane olmasınlar".

***Məhəmmədəli QƏRİBLİ***

# Azərbaycan bələdiyyə seçkilərində seçici aktivliyinin 32 faiz həddi - əvvəlki 4 seçkidə iştirakçılığın dinamikası...

**Məlum olduğu kimi, dekabrın 23-də Azərbaycanda bələdiyyə seçkiləri keçirilib. Belə ki, 1606 bələdiyyə üzrə 15 min 156 bələdiyyə üzvü yerinə 42 minə yaxın iddiaçının iştirakı ilə keçirilib. Ökə üzrə seçicilərin 32,72 faizinin səsvermədə iştirak etdiyi məlum olub.**



***Abil Bayramov:** "...seçkilərə getməkdə maraqlı deyillər"*

Müşahidələr göstərir ki, hər bələdiyyə seçkilərində seçici fəallığı aşağı düşür. Müqayisə üçün qeyd edək ki, bundan əvvəl sonuncu bələdiyyə seçkiləri 2014-cü ilin dekabrında keçirilib. Həmin seçkilərdə seçici fəallığı 38,92 faiz olub. Ondan əvvəl 2009-cu ilin dekabrında keçirilən bələdiyyə seçkilərində seçici fəallığı 42,55 faiz olub. Həmçinin, 2004-cü ildə keçirilən bələdiyyə seçkilərində seçici fəallığı 49,65 faiz olub. Ən çox seçici fəallığı 1999-cu ilin dekabrında keçirilən ilk bələdiyyə seçkilərində özünü göstərib. Belə ki, həmin seçkilərdə seçici fəallığı 58 faizdən yuxarı olub. Görünən odur ki, indiyə qədər ölkədə keçirilən 5 bələdiyyə seçkisi zamanı hər dəfə seçici fəallığı aşağı düşüb.

Maraqlıdır, bu nə ilə bağlıdır?

Məsələyə münasibət bildirən bələdiyyə sahəsi üzrə ekspert Abil Bayramovun sözlərinə görə, seçici fəallığının aşağı düşməsi bir sıra amillərlə bağlıdır: "1999-cu ildə ilk bələdiyyə seçkiləri keçiriləndə insanların bələdiyyələrə böyük inamı var idi. Yerli özünüidarə kimi bələdiyyələrin əhalinin problemlərinin həllində böyük rol oynayacağına inanırdılar. Ancaq bələdiyyələrin səlahiyyətinin az olması və digər amillər seçicilərin inamına mənfi təsir etdi. Nəticədə əhalinin də bələdiyyələrə inamı azaldı. Deməyim odur ki, bu, əhalinin bələdiyyələrlə bağlı gözləntilərinin aşağı düşməsi ilə bağlıdır. Məsələ ondadır ki, bələdiyyələrlə bağlı gözləntilər özünü doğrultmayanda bu, seçici fəallığının aşağı düşməsinə gətirib çıxarır. Bələdiyyə seçkilərində iştiraka maraq azalır. Vətəndaşlar gözləyirdilər ki, bələdiyyələr onlara yaxşı və keyfiyyətli ictimai xidmətlər göstərəcəklər. Bu xidmətlərə görə vətəndaşlar məmnun qalacaqlar. Ancaq təəssüflər olsun ki, müxtəlif obyektiv və subyektiv səbəblər üzündən bu baş vermədi. Reallıq odur ki, bələdiyyələrin belə bir imkanı yoxdur.

*"Vətəndaşlar gözləyirdilər ki, bələdiyyələr onlara yaxşı və keyfiyyətli ictimai xidmətlər göstərəcəklər"*

**Ona görə də insanlar fikirləşirlər ki, bələdiyyə institutu səmərəsiz bir təsisatdır. Bu səbəbdən seçkilərə getməkdə maraqlı deyillər. Hər dəfə bələdiyyə seçkilərində seçici fəallığının aşağı düşməsi bu amillərlə bağlıdır".**

***Vidadi ORDAHALLI***

**Qırıcılar arasında xüsusi üstünlüklərə malik olan Rusiyaya məxsus çoxməqsədli döyüş təyyarəsi Su-57 bu gün dünyanın ən güclü qırıcılarından biri kimi diqqəti cəlb edir. Rusiya çoxfunksiyalı 5-ci nəsil qırıcı təyyarəsi olan Su-57 "Suxoy" birləşmiş konstruktor bürosu tərəfindən layihələndirilib, T-50 şərti adı altında tanınır.**

# Rusların məşhur Su-57 qırıcısı yandı, son 8 ildəki qəzaların tarixçəsi...



Su-57 qırıcı təyyarəsinin tarixçəsini araşdırarkən olduqca maraqlı faktlarla üzləşdik. Onu deyək ki, bu qırıcının əsas üstünlüyü radara görünməməsidir. Bu təyyarə Rusiya HHQ-dəki Su-27 və MiQ-29-ları əvəz etmək üçün hazırlanıb. Onun rəqibləri isə Amerikanın F-22 və F-35 təyyarələridir. Onu da bildirək ki, Su-57-nin ilk uçuşu 29 yanvar 2010-cu ildə olub.

Rusiya bu təyyarədən 1000 ədəd istehsal etməyi planlaşdırırdı, lakin sonra bu rəqəm 76-ya enib. Hindistan da 25 milyard dollarlıq müqavilə ilə Rusiyadan 250 ədəd Su-57 almağı və birgə istehsal etməyi planlaşdırsa da, sonradan bu müqaviləni ləğv edib.

"T-50 PAK FA" qırıcıları amerikanların beşinci nəsil F-22 Raptor döyüş təyyarəsi və F-35 qırıcılarına qarşı ciddi rəqib ola bilər. T-50 qırıcısı qanadları altında daşıdığı "hava-hava" sinfindən olan raketlərinin uzaq məsafədəki hədəfləri vurmasından ötrü maksimal kinetik enerji ilə təmin edilib və o, öz konstruksiyasının gücünə əsasən, həm yüksək sürətlə, həm də daha hündürdən uça bilər. Rusiya qırıcısının bortunda qüvvətli radioelektron lakasiya sistemi də yerləşdiriləcək. Məlumatlara görə, Su-57 qırıcısı nüvə silahının çatdırılması üçün əsas platforma deyil, lakin onun yüksək texnoloji manevr qabiliyyəti nüvə silahını çatdırmaq üçün daha operativ imkanlar yaradır.

Su-57 ikinci mərhələ mühərriki ilə ilk sınaq uçuşunu 2017-ci ilin dekabrında həyata keçirib, uçuş 17 dəqiqə davam edib.

2018-ci ilin əvvəlində 4 ədəd beşinci nəsil Su-57 qırıcısı Suriyadakı döyüş sınağını uğurla başa vurub. Su-57-lər Suriyada radar sistemləri və elektron hərbi təchizatları sınaqdan keçirib və döyüş əməliyyatlarında iştirak etməyiblər.

Qeyd edək ki, 2019-cu ilin may ayında Rusiya Prezidenti Vladimir Putin jurnalistlərə bildirib ki, Rusiya ordusu üçün 2027-ci ilə qədər bu təyyarələrdən 76 vahid sifariş veriləcək. Bir şərtlə ki, istehsalçı zavod təyyarələrin maya dəyərini artırmasın. O, müvafiq müqavilənin yaxın vaxtlarda imzalanacağını bildirib. Müqavilənin dəyəri 170 milyard rubla yaxın ola bilər. Təyyarələr Xabarovsk diyarında yerləşən Yuri Qaqarin adına Komsomolsk-na-Amure aviasiya zavodunda istehsal olunur, lakin layihələndirilən Su-57 ilə istehsal olunan təyyarə arasında fərqlər var. Layihədə Su-57 güclü "Saturn İzdeliye 30" mühərriki ilə inşa ediləcəkdi. Buna baxmayaraq, qiymət və keyfiyyətə nəzarətlə bağlı narahatlıqlar rus mühəndislərini onun daha köhnə və zəif Al-41 mühərriki olan prototipini, daha sonra seriya modellərini istehsal etməyə vadar etdi. Növbəti modellərdə hansı mühərrikindən istifadə ediləcəyi ilə bağlı məlumat verilməyib. Qərb analitikləri "İzdeliye 30" mühərrikli Su-57 təyyarəsinin 2027-ci ildə hazır olacağını bildirirlər.

Dünyada ən güclü qırıcı təyyarə olan Su-57 qırıcı təyyarəsinin tarixində qəzalar da baş verib.

Su-57 təyyarəsində baş verən uçuş qəzaları ilə bağlı rəsmi məlumatlarda qeyd edilir ki, qırıcı 10 iyun 2014-cü ildə beşinci prototip olan T-50-5 test uçuşları zamanı mühərrikində olan alışma nəticəsində zədə alaraq yerə enib. Pilot heç bir xəsarət almayıb. Qəzadan sonra "Suxoy" şirkəti bildirib ki, təyyarə təmir olunacaq və T-50-nin test uçuşlarında heç bir maneə olmayacaq. 24 dekabr 2019-cu ildə ilk seriya istehsalı olan Su-57 qırıcısı sınaq uçuşları zamanı qəzaya uğrayıb. İnsident Xabarovsk vilayətində, Dzemqi aerodromundan 111 kilometr məsafədə baş verib. Pilot katapult edə bilib və sağ qalıb, onu Mi-8 vertolyotu ilə evakuasiya ediblər. Qəzada əsas versiya kimi texnikanın nasazlığı və pilot səhvi nəzərdən keçirilir.

Baş verənlərlə bağlı iki versiyası var. Birincisinə görə, uçuş zamanı ilk mərhələnin - AL-41F1 (məhsul 117) mühərrikində problemlər oldu. İkinci versiya pilot səhvidir. Hazırda hadisə xüsusi komissiya tərəfindən araşdırılır.

Su-57 qırıcı təyyarəsinin uçuşunda baş verən digər qəza isə 2011-ci ildə baş verib. Su-57 üçün üçüncü və ən ciddi qəza hesab edilən hadisə 2011-ci ilin avqustunda Jukovski (Moskva vilayəti) Beynəlxalq Aviasiya və Kosmik Salonunda (MAKS-2011) baş verib. Su-57-nin sürətlənməsi zamanı paraşüt atılsa da, nəticədə qırıcı uçuş zolağını tərk edə bilməyib. Hadisəyə səbəb elektrik stansiyasının avtomatlaşdırılmasında baş verən nasazlıq olduğu qeyd edilir. Su-57 ilə bağlı növbəti hadisə isə 2014-cü ilin iyununda, həmçinin, Jukovskidə enişdən sonra təyyarənin düzgün hava almasının üstündə tüstü, sonra isə yerli yanğın baş verib.

Su-57-nin Suriyada iki dəfə sınaqdan keçirildiyi haqqında mətbuatda məlumatlar yer alıb. Qeyd edilənə görə, 2018-ci ilin fevral ayında dördüncü nəsil rus qırıcısı ilk dəfə Suriyaya uçuş edib və orada perspektivli əməliyyat həyata keçirilib və burada Ovodun döyüş istifadəsi tətbiq edilib. Bu ilin dekabr ayında Rusiya Silahlı Qüvvələrinin Baş Qərargahı Suriyada Su-57-nin yenidən sınaqdan keçirildiyini elan etdi, bu müddət ərzində bütün planlaşdırılan tapşırıqlar uğurla yerinə yetirildi. Xüsusi test tarixləri açıqlanmadı.

Qeyd edilənə görə, Rusiya təyyarələrinə qarşı iki əsas şikayət var. Birincisi, maşının aşağı radar görmə qabiliyyətini təmin edən gizli texnologiyalara faktiki etinasızlıqdır (bunun üçün Amerika və Rusiya təyyarələrində texnoloji imkanları müqayisə etmək kifayətdir). İkincisi, Su-57-lərin, o cümlədən, bu gün birinci pillə ilə təchiz olunmuş mühərrikləri almalı olduğu ikinci mərhələli seriyalı mühərrikin olmamasıdır.

**Sonuncu vəziyyət Hindistanın Su-57 bazasında ilk beşinci nəsil Hindistan qırıcısının yaradılmasını nəzərdə tutan beşinci nəsil döyüş təyyarələri (FGFA) proqramı ilə Rusiya ilə əməkdaşlığı dayandırmasının rəsmi səbəblərindən biri idi.**

***İradə SARIYEVA***

# Manatın dollar qarşısında güclənməsi qaçılmaz hala gəlir...

**Dünya iqtisadiyyatında bu gün əsas müzakirə mövzularından biri də beynəlxalq ticarətdə hələ əsas valyuta statusunu qoruyub saxlayan dolların növbəti il üçün kursunun necə olacağıdır. Məsələ burasındadır ki, Tramp hökuməti dolların ucuzlaşması üçün fəaliyyətini genişləndirir.**



ABŞ hökuməti istəyinə nail olsa, onda dolların gələn il ərzində əhəmiyyətli dərəcədə məzənnə itkisinə məruz qalması qaçılmaz sayılır.

Təbii ki, bu proses Azərbaycana da mütləq mənada öz təsirini göstərəcək. Ümumiyyətlə, gələn il ərzində manatın güclənməsi istiqamətində təzyiqlərin xeyli artması gözlənilir. Gələn ildən etibarən Azərbaycan qazının Avropa bazarlarına çıxması, qeyri-neft üzrə ixracın artması, turizm, yükdaşımalar kimi sahələrin ölkəyə külli miqdarda valyuta gətirməsi də manatın mövqeyini gücləndirən faktorlar sayılır. Amma təbii ki, ABŞ-ın dollar siyasəti də prosesə birmənalı şəkildə təsir edir. Yeri gəlmişkən qeyd edək ki, əslində bir çox nüfuzlu maliyyə təsisatlarının ekspertləri də 2020-ci ildə ABŞ dollarının məzənnəsinin azalacağı qənaətindədir. Ekspertlərin ümumi proqnozuna əsasən, gələn il ərzində avronun məzənnəsi hazırkı 1,1 dollardan 1,16 dolladək artacaq. Proqnoza görə, 2019-cu ildə qlobal resessiya gözləntiləri hakim olduğu üçün dollar və dollar aktivləri daha çox satın alınsa da, hazırda dünya iqtisadiyyatındakı vəziyyətə dair narahatlıq səngidiyi, ABŞ Federal Ehtiyatlar Sistemi (FES) faiz dərəcələrini dəyişmək fikrində olmadığı üçün sərmayəçilər daha risqli yatırımlara yönəlir, dolların məzənnəsi də azalır. Belə ki, gələn ilin sonunda avronun dollara qarşı məzənnəsi "Goldman Sachs" bankına görə 1,15, "Deutsche Bank"a görə 1,2 olacaq. "Bank of America"nın ekspertləri isə ABŞ-Çin ticarət qarşıdurmasının mühüm təsiri olacağını, yazda isə sərmayədarların diqqətini ABŞ-dakı qarşıdan gələn və adətən iqtisadiyyat üçün daha çox mənfi rol oynayan prezident seçkilərinin çəkəcəyini bildiriblər. "Bank of New York Mellon", "Citigroup", həmçinin "BlackRock" investisiya şirkətinin analitiklərinin proqnozları da dolların ucuzlaşacağını göstərir. Eyni zamanda, "JPMorgan Chase" investisiya bankının ekspertləri qeyd edirlər ki, 2020-ci ildə qlobal iqtisadiyyat ABŞ artımının yavaşlaması səbəbindən çətinliklərlə üzləşə bilər. Bu təşkilatın analitikləri 2020-ci ildə dolların 1,14 səviyyəsinə qədər azalacağını proqnozlaşdırırlar. Həmçinin "Saxo Bank"ın dollar proqnozlarına görə, Asiya ölkələri dollardan imtina edərək öz rezerv valyutalarını buraxacaq. Dollardan silah kimi istifadə olunmasının qarşısını almaq, ticarət müharibələri təhlükəsindən yayınmaq üçün Asiya İnvestisiya İnfrastukturları Bankı yeni valyuta - Asian Drawing Right (ADR) valyutasını dövriyyə buraxacaq. Bu valyutanın 1 vahidi 2 dollara bərabər olacaq. Dollarlaşmadan imtina ABŞ valyutasının bir neçə ayda 20% dəyər itirməsi ilə nəticələnəcək.

Digər tərəfdən, bir çox ölkələr artıq ticarətin milli valyutalar üzərindən həyata keçirilməsi istiqamətində çoxsaylı sazişlər imzalayıb. "Rusiya, Türkiyə, Çin və İran bu istiqamətdə artıq müvafiq addımlar atır. Venesuelada bank əməliyyatlarında dollar istifadə edilmir. Hətta Türkiyə, Rusiya və İran milli pul vahidləri ilə ticarət aparılması məsələsində razılığa gəliblər. Eləcə də Rusiya və Avropa İttifaqı maliyyə əməliyyatlarının rubl və avro ilə aparılması ilə bağlı işçi qrup yaradıb. Rusiya baş nazirinin müavini Anton Siluanov bildirib ki, Moskva bu növ əməkdaşlığın baş tutmasında maraqlıdır. Bir çox böyük Rusiya şirkəti xaricdə dollardan istifadə etmədən iş görməyin yollarını arayır. Dünyanın karat baxımından ən böyük almaz istehsalçısı Rusiyanın "Alrosa" şirkəti çinli müştərləri ilə yuan, hindistanlı müştərləri ilə isə dollar olmayan fərqli vlayuta üzərindən razılıq əldə etdiyini bildirib. "Surqutnefteqaz" enerji şirkəti, "Rusaqro" kənd təsərrüfatı şirkəti və "Norilsk Nikel" mədənçisi də bənzər tranzaksiyalar üzərində işləyir. İraq da artıq bir sıra qarşılıqlı ticarət əməliyyatlarında dollardan imtina edir. Bütün bunlar isə dollara təsirsiz ötüşmür.

Yuxarıda qeyd olunduğu kimi, ABŞ-ın özündə də baş verənlər prosesdə mühüm rol oynayır. Xüsusən də artan xarici borc prosesə öz təsirini göstərir. Qeyd edək ki, Birləşmiş Ştatların dövlət borcu Donald Trampın prezidentliyi dövründə, yəni 20 yanvar 2017-ci il tarixindən bugünə qədər 2 trilyon dollardan çox artıb. Donald Trampın dövründə keçirilən və ABŞ dövlət büdcəsinə 1,5 trilyon dollara başa gələn vergi islahatları, həmçinin müdafiə xərclərinin artması nəticəsində dövlət borcu görünməmiş sürətlə artır. Eyni zamanda, hökumətin xərclərinə nəzarət olunmaması fonunda dövlət borcunun sürətli artım tendensiyası da davam edir. Artıq bu borc 23 trilyon dollara çatır. ABŞ-da baş verənlər fonunda bazarın əksər iştirakçıları dollar üzrə satış mövqeyindədir. Onların fikrincə, dollarda sürətli məzənnə enişi yaşana bilər. Həmçinin, ABŞ-ın bəzi ölkələrə qarşı iqtisadi savaşı da duruma təsir edir. Məsələn, Çin, Rusiya kimi ölkələr ABŞ-dan aldıqları qiymətli kağızları satır. Bu ölkələrin və digərlərinin istiqraz satışından əldə etdiyi dollar kütləsini satışa çıxaracağı və bu yolla Amerika valyutasının məzənnəsini zəifləndəcəyi gözlənir. Bir sıra ərəb ölkələri də ABŞ qiymətli kağızlarından xilas olmağa çalışır.

Qeyd edilənlər fonunda qarşıdakı dövr ərzində manatın dollar qarşısında artıq müəyyən qədər dəyər qazanması qaçılmaz sayılır. Düzdür, bunu şərtləndirən səbəb təkcə ABŞ-da baş verənlər deyil. Azərbaycanda idxalın getdikcə azalması, ixracın artması da dolların mövqeyini zəiflədir. Bu gedişlə dollara tələbin, sifarişin daha da azalacağı gözlənir. Bu da, təbii ki, manatın məzənnəsinin möhkəmlənməsinə təsir göstərir. Eyni zamanda, ölkəyə daxil olan dollar kütləsinin sürətli artımı da prosesə təsir edir. Məhz bu durumda gələn il ərzində manatın güclənməsi istiqamətində təzyiqlərin xeyli artacağı gözlənir.

***Ramil QULİYEV***

**Prezident İlham Əliyev əhalinin böyük bir hissəsinin sosial rifah halının yaxşılaşmasına təsir edəcək sərəncamlar imzalayıb. Bir sıra sahələrdə əməkhaqqı yüksək sürətlə artır. Bu hal təhsil sektorunda da müşahidə olunur. Sevindirici hal ondan ibarətdir ki, ötən illərlə müqayisədə bu il yüksək əməkhaqqı alan müəllimlərin sayı artıb.**

*"Azərbaycanda təhsilə qayğı ildən-ilə artmaqdadır, bunu təhsilin bütün sferalarında aparılan davamlı islahatlar bir daha təsdiq edir"*

# Azərbaycanda min manat əməkhaqqı alan müəllimlər...

***Kamran Əsədov:** "...o müəllimlər əlavə qazanc haqqında düşünmürlər"*



Yeni Azərbaycan Partiyasının (YAP) təşkilatçılığı ilə "Təhsilin inkişaf strategiyası: Nailiyyətlər və əsas hədəflər" mövzusunda keçirilən konfransda iştirak edən təhsil naziri Ceyhun Bayramov öz çıxışında bildirib ki, əməkhaqqı 1000 manatdan çox olan müəllimlərin sayı təxminən 5000 nəfər təşkil edib. Ümumilikdə isə bu ilin sentyabrından artımlar sayəsində müəllimlərin orta aylıq əməkhaqqı 600 manata çatıb.

Sevindirici hal ondan ibarətdir ki, yüksək əməkhaqqı alan pedaqoqların sayı artır. Danılmaz faktdır ki, müəllimin sosial qayğısı, problemi olmazsa, o, şagirdlərə yüksək keyfiyyətli dərs keçər. Müəllim dərs zamanı maddi sıxıntısını necə həll edəcəyini düşünürsə, həmin dərsin keyfiyyəti də aşağı düşər. Müəllim yüksək əməkhaqqı alarsa, bu hal onun keçdiyi dərsin keyfiyyətinə də müsbət təsir edər.

Təhsil eksperti Kamran Əsədov bizimlə söhbətində qeyd etdi ki, dövlət ümumtəhsil müəssisələrində çalışan, bilik və bacarıqlarının diaqnostik qiymətləndirilməsi aparılan müəllimlərin dərs yükünün və əməkhaqqının artırılması haqqında Azərbaycan Respublikası Prezidentinin 2015-ci ildə sərəncamı var idi: "Dərs yükü bölüşdürülərkən mövcud qanunvericiliyin və təlimati sənədlərin tələbləri, müəllimlərin diaqnostik qiymətləndirmədə göstərdiyi nəticələr müəssisə rəhbəri tərəfindən nəzərə alınır. Dərs bölgüsü aparılarkən müəssisədə işləyən müəllim üçün həftəlik dərs yükü 18 saat (bu zaman həftəlik dərs yükü 2 stavkadan artıq olmamalıdır) müəyyənləşdirilir. Vakant dərs yükü 18 saatdan az olarsa, həmin saatlar, ilk növbədə, müəssisənin ixtisaslı müəllimləri arasında bölüşdürülür.

Müəssisədə hər hansı ixtisasdan kadr olmadıqda, həmin ixtisas üzrə tədris planına əsasən müəyyənləşdirilmiş həftəlik dərs yükü 18 saatadək olduğu halda, yerli təhsili idarəetmə orqanının və ərazi maliyyə-hesablaşma mərkəzinin razılığı ilə müəssisə rəhbəri tərəfindən digər müəssisələrdən əvəzçiliklə və ya saathesabı qaydasında müəllim dəvət olunur".

K.Əsədov onu da vurğuladı ki, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən milli təhsil islahatlarının bir hissəsini də ixtisaslı müəllim kadrlarının hazırlanması, müəllimlərin sosial vəziyyətinin yaxşılaşdırılması təşkil edir. Azərbaycanda təhsilə qayğı ildən-ilə artmaqdadır. Bunu təhsilin bütün sferalarında aparılan davamlı islahatlar bir daha təsdiq edir. 2014-2018-ci illərdə Təhsil Nazirliyinin diaqnostik qiymətləndirməsindən keçən müəllimlərin orta aylıq əməkhaqqı artmaqda davam edir. 2014-cü ildən bu günə kimi 142 min müəllim diaqnostik qiymətləndirmədən keçib. Amma maaşın 20 faiz artımı diaqnostik qiymətləndirmədən keçməyənlərə də şamil olunur. Əməkhaqlarının artımı diaqnostik qiymətləndirmədən keçən bütün müəllimlərə şamil ediləcək. Amma artım zamanı qiymətləndirmədən keçən müəllimlər arasında fərq qoyulmayacaq, artım bütün müəllimlərin əməkhaqlarına eyni səviyyədə təsir göstərəcək. Hazırkı dövrdə diaqnostik qiymətləndirmənin nəticələri müəllimlərin dərs bölgüsü zamanı nəzərə alınır. Bu o deməkdir ki, diaqnostik qiymətləndirmənin nəticələri yüksək olan müəllim daha çox dərs saatı alacaq və bu da onun yüksək əməkhaqqı almasına imkan verəcək. Bu artımdan sonra təkcə Bakı şəhərində 8965 nəfər müəllimin əməkhaqqı 500-1000 manat, 476 nəfər müəllimin əməkhaqqı isə 1000 manatdan yuxarı olub. Aparılan islahat nəticəsində həmin müəllimlərin orta aylıq əməkhaqqı 465 manat təşkil etməklə, ölkə üzrə müvafiq göstəriciyə yaxınlaşıb. Yeni artımdan sonra müəllimlərin əməkhaqqı orta hesabla 77-99 manat artıb. İndi pedaqoji stajı 3 ilə qədər olan və bir stavka dərs yükü (18 saat) dərs deyən müəllim aylıq 462 manat, pedaqoji stajı 18 ildən çox olan və bir stavka dərs yükü (18 saat) dərs deyən müəllim aylıq 594 manat əməkhaqqı alır".

**K.Əsədovun sözlərinə görə, 1000 manat əməkhaqqı alan müəllimlər şagirdlərə daha yüksək keyfiyyətli dərs tədris edir. Çünki o müəllimlər əlavə qazanc haqqında düşünmürlər.**

***Günel CƏLİLOVA***

**Azərbaycan nə qədər inkişaf etsə də, Lerik rayonunun elə dağ kəndləri var ki, artıq burada yaşamaq hər adamın işi deyil. Belə ağır həyatlı kəndlərdən biri Hamaratdır. Sosial problemlərin üzündən buranı tərk edənlər çoxdur.**

# Lerikin uzaq Hamarat kəndində bankomat niyə yoxdur, olmalıdırmı...




Cavanlar gedir, yaşlı nəsil isə əzab-əziyyət içində günlərini sayır.

Dövlət başçısı xalqın rahatlığı üçün bütün mütərəqqi üsullardan istifadə edir. Respublikamızda bankomatların quraşdırılması da məhz bu məqsədə xidmət edir. İndi Azərbaycan vətəndaşı bank-maaş, eləcə bank-kredit kartı ilə istədiyi vaxt pullarını heç bir çətinlik çəkmədən bankomatdan çıxara bilir. Qaldı ki, bu rahatlığı hamaratlı pensiyaçılar üçün problem olaraq qalır. Birincisi, kənddə, həm də qocaların gedə biləcəyi yaxın ərazilərdə bankomat yoxdur. Doğrudur, Hamaratdan 18 kilometr məsafədə yerləşən Piran kəndində bankomat quraşdırılıb. Hamarata ictimai nəqliyyat işləmir, buna görə də kəndin yaşlı insanları bankomatın xidmətindən istifadə edə bilmir, aylarla pensiyaların üzünə həsrət qalırlar. Ona-buna ağız açmağın da bir faydası olmur.

Vəziyyətin gərginliyini nəzərə alıb, yaşlı insanların üzləşdikləri çətinlikdən qurtarmaq bilavasitə səlahiyyətli şəxslərin vəzifə borcudur. Digər tərəfdən bu, ölkə rəhbərinin onlardan tələbidir. İndi qalır Hamarat kəndinə yaxın, bir neçə yaşayış məntəqəsini birləşdirən ərazidə bankomatın quraşdırılması. Respublikamızın sürətli inkişaf dövründə bu heç də çətin iş deyil, yetər ki, istək olsun...

***Zəfər ORUCOĞLU***
***Azərbaycan Jurnalistlər Birliyinin üzvü***

**Azərbaycan teatrının müasir standartlarının müəyyənləşdirilməsi qanunvericiliklə və onillik Dövlət Proqramı ilə müəyyənləşdirilməli olsa da, təəssüf ki, biz çağdaş teatrlarımızda hansı standartların əsas olduğunu görə bilmirik. Müasir Azərbaycan teatrı dünya teatrının bir parçası olsa da, o, dünyanın aparıcı teatrları ilə ayaqlaşa bilmir.**

# 10 illik teatr proqramının icra vəziyyətinə ciddi iradlar var

Azərbaycan teatrının inkişaf etməsi onun müasir teatr dəyərlərini mənimsəməsindən keçsə də, teatrlarımız yenilikləri qəbul etməkdə elə də maraqlı deyillər. Baxmayaraq ki, həm Prezident İlham Əliyevin imzaladığı "Azərbaycan Teatrı 2009-2019-cu illərdə" Dövlət Proqramı, həm də mövcud teatr qanunu teatrlarımızın öz işlərini tan müasir tələblər səviyyəsində qurmasına geniş şərait yaradır. Amma sözügedən Dövlət Proqramının icrası hələ də tam olaraq başa çatmayıb. Halbuki, artıq Dövlət Proqramının müddəti bitir və problemlər isə həll edilməmiş qalır.

Teatrşünaslar birmənalı olaraq qeyd edirlər ki, "Azərbaycan Teatrı 2009-2019-cu illərdə" Dövlət Proqramı tam olaraq icra olunmayıb. Mütəxəssislər qeyd edirlər ki, əslində, bu proqramda irəli sürülən məsələlər ötən 10 il müddətində həyata keçirilməli, problemlər aradan qaldırılmalı idi, lakin bir neçə məqamı nəzərə almasaq, proqramın icrası yarımçıq qalıb.

10 il müddətinə qəbul olunmuş Dövlət Proqramına əsasən, ölkəmizdə yerli və beynəlxalq əhəmiyyətli, müxtəlif profilli teatr festivallarının, konfranslarının keçirilməsi nəzərdə tutulurdu və həqiqətən də festivallar və konfranslar keçirildi, dünyanın müxtəlif ölkələrindən bu tədbirlərə qatılanlar az olmadı. Amma teatrın problemi yalnız festival və konfrans keçirmək olmadığını deyən teatrşünas Xəyalə Rais hesab edir ki, "Azərbaycan Teatrı 2009-2019-cu illərdə" Dövlət Proqramı tam olaraq icra olunmayıb. Onun sözlərinə görə, Dövlət Proqramına görə, teatrlarda prodüsserlik institutu formalaşdırılmalı, eyni zamanda da teatrlar müstəqil gəlir cəlbetmə şəraitindən yararlanmalı idilər, lakin teatrlar bunu edə bilmədilər. "Hesab edirəm ki, Dövlət Proqramı tam olaraq icra edilmədi, bir xeyli icra olunmamış bənd qaldı. Dövlət Proqramı qəbul edildikdən sonra teatrlarda müəyyən dəyişikliklər oldu, festivallar, konfranslar keçirildi, bəzi teatrlar xarici teatrlarla müştərək tamaşalar hazırladılar, aktyor və rejissor mübadilələri həyata keçirdilər. Amma bu o demək deyil ki, proqram çərçivəsində qarşıya qoyulan bütün hədəflərə nail olmaq mümkün oldu. Əslində, Dövlət Proqramında yalnız festival və konfrans keçirmək məsələsi yer almamışdı, bu proqram teatrın bütün istiqamətlərini özündə birləşdirib. Dövlət Proqramında əks olunan bəndlərdən biri teatr treninq mərkəzinin yaradılması idi, lakin hələ də bu mərkəz yaradılmayıb. Bilirsiniz, proqramın icrasının tam olaraq başa çatdırılmaması hələ də bu sahədə ciddi problemlərin olduğunu göstərir. Amma bununla belə, bu on il ərzində teatrlarımız inkişaf yolu keçib və xeyli nailiyyət əldə edib".



***Xəyalə Rais:*** *"Elə bəndlər icra edilməyib ki, onların həlli teatrımızın inkişafı üçün daha geniş imkanlar aça bilərdi"*

***Vidadi Qafarov:*** *"Burada nəzərdə tutulan bir sıra məsələlər öz həllini tapa bilmədi"*

AMEA Memarlıq və İncəsənət İnstitutunun Teatr, kino və televiziya şöbəsinin müdiri Vidadi Qafarov "Bakı-Xəbər"ə bildirdi ki, Dövlət Proqramının icrasının həyata keçirilməməsinin bir neçə səbəbi var. V.Qafarovun sözlərinə görə, "Azərbaycan Teatrı 2009-2019-cu illərdə" Dövlət Proqramı ölkəmiz müstəqillik qazandıqdan sonra teatr sahəsinin inkişafına yönəlik qəbul edilən vacib sənədlərdən biridir. Dövlət Proqramı qəbul edildikdən sonra teatr ictimaiyyətinin ondan gözləntiləri çox olsa da, bəzi maddələrin icradan kənarda qalması həlli vacib olan bir sıra məsələlərin arxa planda qalmasına səbəb olub.

O hesab edir ki, həqiqətən də bu sənədin qəbul edilməsi və onun icrası milli teatr prosesinin intensivləşməsində böyük rol oynadı. V.Qafarovun sözlərinə görə, Dövlət Proqramının bəzi maddələri icra edildi. "Dövlət Proqramının qəbul olunması müxtəlif beynəlxalq konfransların, teatr festivallarının keçirilməsinə, xarici qastrolların təşkil edilməsinə, dünya teatrının Azərbaycan teatr məkanına inteqrasiyasına, Azərbaycan tamaşaçısının dünya teatrı ilə müəyyən qədər tanış olmasına şərait yaratdı, eyni zamanda, milli teatrımızda mövcud olan bir sıra boşluqları və problemləri də üzə çıxardı. Amma Dövlət Proqramının müddəti bu il bitsə də, bu sənəddə nəzərdə tutulan bir çox maddə təəssüf ki, yerinə yetirilməmiş qaldı. Elə bəndlər icra edilməyib ki, onların həlli teatrımızın inkişafı üçün daha geniş imkanlar aça bilərdi. Dövlət Proqramının şərhinə keçməzdən əvvəl 2006-cı ildə qəbul edilən "Teatr və teatr fəaliyyəti haqqında" Qanuna toxunmaq istəyirəm. Bu qanunda həqiqətən də yeniliklərin edilməsinə, ora yeni zamanın tələblərinə uyğun yeni maddələrin salınmasına böyük ehtiyac var. Yəni qanunda elə maddələr var ki, onlar aktuallığını itirib və zamanın tələblərinə cavab vermir. Bu, məsələnin bir tərəfi. Dövlət Proqramına gəlincə, burada nəzərdə tutulan bir sıra məsələlər öz həllini tapa bilmədi. Məsələn, Dövlət Proqramının "Tədbirlər planı"nın 2.1-ci maddəsində nəzərdə tutulan "Teatr sahəsində idarəetmənin və maliyyə-iqtisadi mexanizmlərin təkmilləşdirilməsi istiqamətində islahatların aparılması" üzrə, demək olar ki, heç bir iş görülmədi. Halbuki, bu sahədə çoxlu həllini gözləyən problem var. Bu, icrası 2009-2013-cü illər üçün nəzərdə tutulmuş 2.2-ci maddəsinə - "Teatr fəaliyyətinin normativ-hüquqi bazasının möhkəmləndirilməsi ilə bağlı tədbirlərin həyata keçirilməsi"nə də aiddir. Xatırladım ki, bu sahədə ana sənəd olan "Teatr və teatr fəaliyyəti haqqında" Qanun 29 dekabr 2006-cı il tarixində qəbul olunub və yalnız 2016-2018-ci illərdə "Reklam haqqında" və "Tütün məmulatlarının istifadəsinin məhdudlaşdırılması haqqında" qanunlara uyğun olaraq, kiçik dəyişikliklərə məruz qalıb".

Dövlət Proqramının tam icra edilməməsinin səbəblərinə gəlincə, V.Qafarov bildirdi ki, burada direktor institutunun, bədii rəhbərin, yoxsa prodüsserin rəhbərlik etməsi məsələsi tam aydınlaşmadığına görə sözügedən sənədin icrasında problemlər üzə çıxıb. "Bu sənədin tam olaraq icra edilməməsində müxtəlif səbəblər var, onlardan biri də teatrların idarə edilməsi sahəsində boşluqlardır. Bu gün teatra direktorun, bədii rəhbərin, yaxud prodüsserin rəhbərlik etməsi hələ də tam aydınlaşmayıb. Bu sahədə də müəyyən qaranlıq məqamlar var".

***İradə SARIYEVA***

# Can alan saxta spirtli içkilər bazarlarımızı tutub

**İnsanı ölümə aparan yol... Kimi bu yola düşməkdən ötrü 3 manatından, kimi isə 100 manatından keçməli olur. Söhbət alkoqollu içki bazarından gedir. Danılmaz faktdır ki, son zamanlar şadlıq evlərində zəhərlənmə hallarının sayı durmadan artmaqdadır. Əsas səbəb spirtli içkilərdir.**

*"...spirtli içkilərdə saxlanma müddətinin olmaması təhlükəli olmasının göstəricisidir"*

Hazırda satışa çıxarılan spirtli içkilərin çoxunun üzərində saxlama müddəti göstərilmir. Mütəxəssislər köhnə spirtli içkidən istifadənin olduqca zərərli olduğunu və hətta insanın dünyasını dəyişməsinə səbəb ola biləcəyini deyirlər. Bu baxımdan spirtli içki bazarına dövlət tərəfindən nəzarət bir xeyli gücləndirilib. Paytaxtın ayrı-ayrı yerlərində aparılan reydlərin nəticələri də belə deməyə əsas verir ki, bu məhsulların bir çoxu istifadə müddətini başa vurub. Təbii ki, bu da məhsulun keyfiyyətinə birbaşa təsir göstərir. İstifadə müddəti bitmiş, keyfiyyəti aşağı olan bu spirtli içkilər isə zəhərlənmələrin sayını xeyli artırır.

Qeyd edək ki, aksiz markası olmadan və ya saxta aksiz markası ilə markalanmış məhsulların satışı, aksiz markalarının saxtalaşdırılması, istehlak bazarına qanunsuz istehsal olunmuş məhsulların çıxarılması qanunvericiliklə qadağandır. Bununla belə, son zamanlar vergi orqanlarına daxil olan əməliyyat məlumatları əsasında müəyyən edilib ki, ölkə ərazisində fəaliyyət göstərən bir sıra ictimai iaşə obyektlərində, xüsusilə şadlıq evlərində vətəndaşlara qanunsuz istehsal edilmiş və saxta aksizli, o cümlədən, kustar üsulla hazırlanmış alkoqollu içkilər təqdim edilir.

Qeyd etdiyimiz kimi, son zamanlar spirtli içkidən zəhərlənənlərin sayı artır. Elə bu günlərdə Bakıda 3 nəfər texniki spirtli içkidən zəhərlənib.

Nərimanov Rayon Prokurorluğunun yaydığı məlumatda qetd olunur ki, zərərçəkənlər arasında Nərimanov rayonu 18-ci Polis Bölməsinin cinayət axtarış şöbəsinin rəisi, 32 yaşlı Bayramov Sərxan Niyazi oğlu da var. Polis dekabrın 23-də Klinik Tibbi Mərkəzdə vəfat edib. İlkin araşdırma zamanı məlum olub ki, dekabrın 21-də axşam saatlarında müstəntiq və dostları Koroğlu Rəhimov küçəsində yerləşən restoranda spirtli içki içiblər. Sonra onlar Tbilisi prospektində yerləşən başqa bir iaşə müəssisəsinə gediblər. Burada S.Bayramov və dostu Həmzəyev Cəlal Ələmdar oğlu özlərini pis hiss ediblər və "zəhərlənmə" diaqnozu ilə xəstəxanaya yerləşdiriliblər: Sərxan Bayramov Klinik Tibbi Mərkəzə, Cəlal Həmzəyev isə 3 saylı şəhər klinik xəstəxanasına. Məlumata görə, əməliyyatçının dostu C.Həmzəyevin vəziyyəti ağırdır, hər iki gözü kor olub. Əldə edilən məlumatlara görə, gənclər viski içiblər və yeraltı sexlərdə sənaye spirtindən hazırlanan bu içkidən zəhərlənmə ehtimalı yüksəkdir.

Dekabrın 24-də axşam saatlarında texniki spirtdən zəhərləndiyi iddia edilən başqa bir şəxsin cəsədi Səbail rayonu ərazisindəki morqa çatdırılıb. Meyitin 1995-ci il təvəllüdlü Mustafayev Mustafa Teymur oğluna məxsus olduğu ortaya çıxıb. M.Mustafayevin vəziyyəti Səbail rayonundakı restorana baş çəkdikdən sonra pisləşib. O, Toksikoloji Mərkəzə aparılıb və bir müddət sonra orada ölüb.

Ümumiyyətlə, son zamanlar spirtli içkidən zəhərlənənlərin sayı sürətlə artır. Bunun da səbəbi spirtli içki sektorunda saxta alkoqollu içkilərin olmasıdır.

***Eyyub Hüseynov:** "Spirtli içki bazarının təxminən 50%-i saxta və ya standartlara uyğun deyil"*



Saxta spirtli içkilərdə bağlı "Bakı-Xəbər"ə danışan Azad İstehlakçılar Birliyinin (AİB) sədri Eyyub Hüseynov bildirdi ki, əmtəə bazarında külli miqdarda xarici ölkə brendləri adı altında spirtli içkilər hazırlanır: "Spirtli içkilər bazarı ölkənin ən çox çirklənmiş saxta mallar olan bazarıdır. Təəssüf ki, bu belədir. Spirtli içki bazarının təxminən 50%-i saxta və ya standartlara uyğun deyil. Spirtli içkilər bazarın ən çox çirklənmiş sektorudur. Əhali bilməlidir ki, araqların saxlanma müddəti bir ildən, konyaklar 3 ildən, şərablar isə 6 aydan artıq deyil. Monitorinq apardığımız zaman məlum olub ki, spirtli içkilərin 95 faizinin üzərində buraxılma tarixi yazılmayıb. Yaxud yerli spirtli içkilərin üzərində müddətsiz yazılıb. Bu o deməkdir ki, mağazada satılan spirtli içkilər ağır metallarla zənginləşdirilmiş içkilərdir. Bura istər xaricdən gətirilən, istərsə də daxildə istehsal olunan içkilər daxildir. Yəni saxlanma müddətinin olmaması spirtli içkinin təhlükəli olmasının göstəricisidir. Bakı ətrafında heç bir üzüm plantasiyası olmadığı halda, naməlum mayelərdən spirtli içki istehsal edən müəssisələr var. Xaricdən gətirilən içkilərlə də bağlı problemlər yaşanır".

***Günel CƏLİLOVA***

# "Nar"dan Yeni il səfərləri üçün sərfəli rominq paketləri

**Ölkənin ən gənc mobil operatoru "Nar" Yeni il ərəfəsində səfərə çıxan abunəçiləri üçün sərfəli rominq paketləri təklif edir. Mobil operatorun rominq paketləri müştərilərin tələblərinə uyğun olaraq səsli zəng, internet və "WhatsApp"da pulsuz yazışma imkanı verir. "Nar" istifadəçiləri Türkiyə, Rusiya, Gürcüstan, Birləşmiş Ərəb Əmirlikləri kimi populyar istiqamətlər də daxil olmaqla, 45 ölkədə müvafiq rominq paketinə qoşularaq öz yaxınları ilə daim ünsiyyətdə qala bilərlər.**

Səyahət zamanı rahat ünsiyyətdən yararlanmaq üçün abunəçilər ehtiyaclarına uyğun olaraq 4 rominq paketindən birini seçə bilərlər. "Roaming 9" paketi abunəçilərə 500 MB internet, "Roaming 15" paketi 500 MB internet və 50 dəqiqə səsli zəng, "Roaming 18" paketi 1 GB internet, "Roaming 28" paketi isə 1 GB internet və 100 dəqiqə səsli zəng xidməti təklif edir. Xüsusilə qeyd etmək lazımdır ki, "Roaming 18" və "Roaming 28" paketlərində "WhatsApp" yazışmaları tamamilə pulsuzdur. Yəni bu trafik rominq internet paketindən çıxılmır.

Qeyd edək ki, səyahət zamanı "Nar" nömrələrində rominqi aktivləşdirənlərin sayı ötən illə müqayisədə 2019-cu ilin yanvar-noyabr aylarında 25%, rominqdə istifadə olunan internet trafikinin həcmi isə 68% artıb. Ümumilikdə, "Nar" dünyanın 117 ölkəsində abunəçilərinə keyfiyyətli rominq xidmətləri təklif edir. Daha ətraflı məlumatı www.nar.az səhifəsindən əldə etmək olar.




"Azerfon" şirkəti ("Nar" ticarət nişanı) 21 mart 2007-ci ildə fəaliyyətə başlayaraq qısa bir müddətdə Azərbaycanda telekommunikasiya və mobil rabitə sahəsinin aparıcı şirkətlərindən birinə çevrilib. "Nar" ticarət nişanı Azərbaycanın zəngin mədəni və tarixi irsinin çağdaş həyatla bağlılığının rəmzi olaraq seçilib. "Nar" ölkədə ilk dəfə olaraq 3G texnologiyasını təqdim edib və geniş 4G şəbəkəsini abunəçilərinin istifadəsinə verib. Nar" şəbəkəsi hazırda ölkə ərazisinin 97,7%-ni (işğal olunmuş ərazilər istisna olmaqla) əhatə edir və 8600-dən artıq baza stansiyası ilə 2,3 milyondan çox abunəçiyə yüksək keyfiyyətli xidmət göstərir.

№ 231 (4129) ■ Qiymәti: 40 qәpik

# BAKI XƏBƏR

26 DEKABR 2019-cu il

www.baki-xeber.com



# 6 yaşlı uşağın mədəsindən 18 sm-lik tük topası çıxarılıb

**Rusiyanın Yamal-Nen Muxtar Respublikasının da uşağın mədəsindən 18 sm-lik tük topası çıxarılıb.**

"Milli.Az" xəbər verir ki, Yeni Urenqoy şəhər xəstəxanasının mətbuat xidmətinin məlumatına əsasən, 6 yaşlı uşaq üzərində çətin əməliyyat aparılıb. O, qarın nahiyəsində güclü ağrılarla xəstəxanaya çatdırılıb. Hazırda ambulator şəraitdə müalicə alır. Əməliyyatı həyata keçirən 25 yaşlı cərrah Andrey Leus oxşar halla ilk dəfə rastlaşdığını bildirib: "Əməliyyat olunmayacağı təqdirdə ölüm baş verə bilərdi".

## "Facebook" barədə heç yerdə danışılmayan həqiqətlər...

**"Facebook" sosial şəbəkəsi dünyada insanların gündəlik həyatlarının tərkib hissəsinə çevrilib. Peşəsindən, siyasi və dini baxışlarından, milliyəti və ölkəsindən asılı olmayaraq insanlar sosial şəbəkədən fəal surətdə istifadə edirlər.**

"Baku.ws" xəbər verir ki, "Facebook" şəbəkəsindan istifadə edən insanlar sosial platforma barəsində bir çox həqiqətlərdən xəbərsizdir. Zaman-zaman dünya mediasında işıqlandırılan və bir çoxları üçün məlum olmayan həqiqətləri sizlərə təqdim edirik. "Facebook" populyarlığını itirmiş kimi görünsə də, hazırda dünyanın ən çox istifadə olunan sosial media platformalarından biridir. Milyonlarla insanın məlumatlarını icazəsiz istifadə etməsi üzə çıxan və barəsində bir neçə ölkədə istintaq başladılan "Facebook"un xidmətlərindən ən azı 2.8 milyard insan istifadə edir. Kiber təhlükəsizlik üzrə mütəxəssis Bob Diachenkonun Comparitech ilə apardığı araşdırma, 267 milyondan çox "Facebook" istifadəçisinin məlumatlarının təhlükədə olduğunu ortaya qoyub. "Facebook", saytdan çıxış etdikdən sonra belə, girdiyiniz digər saytları izləyə bilir. Sosial şəbəkənin qurucusu olan Mark Zukerberqi "block" etmək və profilini şikayət etmək mümkün deyil. Hazırda dünyanın 10-a yaxın ölkəsində "Facebook"dan istifadə qadağandır və ya sosial şəbəkə ilə bağlı məhdudiyyətlər mövcuddur. "Facebook"un 400 milyondan çox fəal istifadəçisi var. Hər gün 35 milyon istifadəçi statuslarını yeniləyir. Hər ay "Facebook"a 2,5 milyarddan çox şəkil yüklənir. Orta "Facebook" istifadəçisinin 130 "dostu" var və ayda səkkiz dostluq sorğusu göndərir. "Facebook" bir ölkə olsaydı, Çin və Hindistandan sonra dünyada ən çox əhalisi olan üçüncü ölkə olardı. "Facebook" istifadəçilərindən birinin paylaşdığı status böyrək bağışlamasına səbəb olub.



## Günəş enerjisi ilə işləyən limitsiz batareyalı qulaqcıqlar təqdim olunub

**Dünyanın ən məşhur səs sistemləri istehsalçılarından biri olan JBL şirkəti, günəş enerjisi ilə işləyən və uyğun şərtlər altında az qala limitsiz batareya vəd edən yeni simsiz qulaqlıq modeli "Reflect Eternal" modelini tanıtdı.**

"Deyerler.org" bildirir ki, qulaqcıq və "Bluetooth" ilə işləyən dinamik modelləriylə istifadəçilər tərəfindən də ən çox seçilən markaların başında gələn JBL, kabelsiz qulaqlıq bazarındakı iddiasını bir neçə mərtəbə daha yuxarı qaldıraraq yeni modellə qarşımıza çıxdı. ABŞ-ın şirkəti "Reflect Eternal" adını verdiyi yeni "Bluetooth" qulaqcığı, düzgün şərtlərdə potensial olaraq limitsiz batareya ömrü təqdim etmək üçün üst hissədə günəş panelindən istifadə edir. JBL, qulaqcıqları gündə yalnız 2,5 saat açıq havada taxmaqla, az qala limitsiz istifadə etmək üçün kifayət edilə biləcəyini söyləyir; ancaq bu təcrübə üçün, qulaqcıqları nisbətən günəşli bir gündə taxmaq lazım olacaq. Şirkət, birbaşa günəş işığına görə çox daha az təsirli olmasına baxmayaraq, "Reflect Eternal" modelini məkan işıqlandırmasından belə enerji yığa biləcəyini ifadə edir.

## Rusiyada robotların fəaliyyəti qanunilәşdirildi

**Rusiya Ədliyyə Nazirliyi vətəndaşlardan borc toplamaq üçün kollektor robotlarının istifadəsini qanunilәşdirməyi təklif edib.**

"Qaynarinfo" xəbər verir ki, bu barədə normativ hüquqi aktlar saytında dərc olunan qanun layihəsində deyilir. Sənəddə bir sıra məhdudiyyətlər də mövcuddur. Robot gündə bir dəfədən çox, təqvim həftəsində iki dəfədən çox, təqvim ayı ərzində səkkiz dəfədən çox olmayaraq istifadə edilə bilər. Dekabrın 5-də Dövlət Duması qeyri-qanuni kollektorluq fəaliyyətlərinin kriminallaşdırılmasını təklif edib. Aşağı palatanın Təhlükəsizlik və Korrupsiyaya Qarşı Mübarizə Komitəsi sədrinin müavini Aleksandr Xinşteyn bu qərara parlamentin əvvəllər qəbul etdiyi məhdudlaşdırıcı tədbirlərə məhəl qoymayan kollektorlara qarşı vətəndaşların kütləvi şikayətlərinin səbəb olduğunu bildirib. Qeyd edək ki, robot kollektoru nitq yaratma sistemindən istifadə edərək səsli mesajların göndərilməsi üçün bir xidmətdir, eyni zamanda, borclularla danışıqların müxtəlif ssenarilərini dəstəkləyə biləcək və bu da onlarla qarşılıqlı əlaqə hesab ediləcəkdir. Sistemin borclular ilə ünsiyyət üsullarından biri ola biləcəyi deyilir.





**Qoç** - Gün ərzində ünsiyyət, xoş söhbətlər, əyləncəyə can atsanız da, hisslərinizi cilovlayın. Düzünü deyin: ciddi iş rejimi ilə son dəfə nə zaman çalışıbsınız? Yox, fikirləşməyin ki, siz işdə hamıdan çox zəhmət çəkirsiniz, rəhbərlik isə bunu görmür.



**Buğa** - Bu gün ərzində evinizi bəzəmək, habelə əylənmək fikrinə düşə bilərsiniz. İşdən çıxandan sonra imkan varsa, nəqliyyatdan az istifadə edin, piyada gəzişin. Ailə üzvləri və qohumlarla münasibətlərdə problemlər yaranmayacaq.



**Əkizlər** - Bu gün mühüm işlərlə təkbaşına məşğul olmayın. Tək çalışsanız, tezliklə yorulacaq, işdən bezəcək və əlinizdəki işi atacaqsınız. Dostlar və yaxınlarla birlikdə çalışsanız, iş şövqünüz itməyəcək, ətrafınızdakı insanlara da ruh verəcəksiniz.



**Xərçəng** - Bu gün çox çətin situasiya ilə qarşılaşacaqsınız. Yaranmış vəziyyətdən çıxış yollarını tapmaq üçün yaxşıca düşünün. Sizi ciddi düşüncələrdən və fikirlərdən ayırmağa çalışacaqlar. Qıcıqlanmayın, sakit olun.



**Şir** - Məntiqli, səbrli olun. Belə davranış sizi və dostlarınızı səhvlərdən qoruyar. Bu gün sizdən məsləhət, dəstək, mənəvi yardım istəyəcəklər. Lakin sevdiyiniz insan inadkarlığı ilə sizi narahat və nigaran qalmağa vadar edəcək.



**Qız** - Həmişə başqalarının qayğısına qalaraq yaxınlarınızın problemlərini həll etməyə çalışırsınızsa, bu gün özünüzü düşünün. Əvvəl başladığınız işləri qaydaya salmaq, gələcəklə bağlı prioritet və planlar barədə düşünmək vaxtıdır.



**Tərəzi** - Bu gün sizə kimsə mane ola bilməyəcək, qarşınıza qoyduğunuz məqsədlərə çatacaqsınız. Elə bir məsələ yoxdur ki, onu çözməyə səy göstərəndə çətinliklərlə qarşılaşasınız.



**Əqrəb** - Məqsədinizə çatmaq üçün bu gün hər şeyə hazırsınız. Lakin unutmayın ki, avantüralar və macaraların hamısı yaxşı bitmir. Macəra maraqlı olsa da, risk və təhlükələr az deyil. Aramla davranın, yüz ölçüb bir biçin.



**Oxatan** - Səhər saatlarında günə aktiv başlayın, vaxtınızı boş keçirməyin. İşə və ya təhsil müəssisəsinə gecikməyin. İctimai nəqliyyatda gecikmələr yarana bilər. Buna görə də evdən bir qədər tez çıxın.



**Oğlaq** - Köhnə işlərin başa çatdırılması və nəticələrin gözdən keçirilməsi üçün əlverişli gündür. Yeni layihələrlə bağlı işlərə başlamayın. Təkliflər alacaqsınız. Amma ehtiyatlı olun, imkanlarınızla potensial tərəfdaşlarınızın gücünü olduğundan artıq dəyərləndirməyin.



**Dolça** - Bu gün sizdən ünsiyyətlərdə diqqət, iş yerində və təhsil müəssisəsində təmkin, söhbətlərdə konkretlik tələb olunur. Yaxınlarınız və sizə əziz olan insanlara əsla yalan danışmayın.



**Balıqlar** - Bu gün sizi aldatmaq və ya yalanlar toruna salmaq çətin olacaq. Müstəqil olun, enerjili davranın, potensialınızı reallaşdırın. Belə üstünlüklərlə məqsədə çata bilərsiniz. Hədəfi konkret müəyyənləşdirin və ona doğru irəliləyin.

*Qoroskop Rusiya və Qərb astroloqlarının proqnozları əsasında hazırlanıb*

## Alimlər insanın mədəaltı vəzini donuza yerləşdirəcəklər

**Yaponiyada donuzun bədəninə insanın mədəaltı vəzini yerləşdirəcəklər.**

"Milli.Az" bildirir ki, Yaponiya hökuməti yanında Dövlət Ekspert Şurası professor Xirosi Naqasimanın rəhbərliyi ilə Meidzi Universitetinin bir qrup tədqiqatçısına ilk təcrübəni aparmağa icazə verilib. Onlar döllənmiş donuz yumurtasını genetik manipulyasiya yolu ilə mədəaltı vəzi yaratmaq imkanından məhrum etməyi planlaşdırır. Sonra elm adamları ona insan mənşəli pluripotent kök hüceyrəsini, daha doğrusu, bədənin istənilən hüceyrəsinə çevrilə bilən süni şəkildə əldə edilmiş hüceyrəni yerləşdirmək istəyirlər. Onlar yumurta hüceyrəsini donuzun bədəninə qaytardıqdan sonra, insan orqanına çox yaxın mədəaltı vəzi olan embriona çevrilməlidir. Təcrübə zamanı alimlər yalnız müəyyən bir səviyyəyə qədər prosesi izləməyi təklif edirlər. Tokio Universitetində də siçanlar ilə oxşar təcrübələrə hazırlaşırlar. Qeyd edək ki, eyni zamanda Yaponiyada heyvan orqanlarını insanlara transplantasiya etmək qadağandır.

*Hazırladı: Ramil QULİYEV*

Baş redaktor: *Aydın Quliyev*

Baş redaktorun müavini: *Tahir Tağıyev*

Redaksiyanın ünvanı: *Bakı şəhəri, Mətbuat pr. 529-cu məhəllə, 6-cı mərtəbə*

Tel-faks: *510-87-40; 510-87-38; 510-87-39*

*e-mail: azer22@mail.ru*

**Reyestr № 0106-P219-45846**

Qəzet həftədə 5 dəfə çıxır. (Bazar və bazar ertəsindən başqa). «BZ»-də çap olunur.

*Sifariş: №2514* *Tiraj: 3050*

Qəzetdə «Olaylar» və «Trend» informasiya agentliklərinin materiallarından istifadə edilir.

Reklam mətninə görə qəzet məsuliyyət daşımır.